**Azərbaycan Xalq Parlamenti**

Azərbaycan Respublikasında transmilli repressiyanın sistemli praktikasının təhlili haqqında

# Hesabat (Shadow Report)

**2026**

**Mündəricat**

1. Qısa xülasə ... 2
2. Metodologiya və mənbələr ... 4
3. Azərbaycanda siyasi rejimin struktur xüsusiyyətləri və transmilli repressiyanın formalaşma konteksti ... 5
4. Azərbaycan Respublikasında transmilli repressiyanın sistemli xarakteri ... 6
5. Transmilli repressiyanın formaları və faktlar ... 7
5.1. Fiziki oğurlama və zorakılıq ... 8
5.1.1. Əfqan Muxtarlı işi ... 8
5.1.2. Elvin İsayev işi ... 9
5.1.3. Zahirəddin İbrahimov işi ... 11
5.2. Deportasiya və ekstradisiya ... 12
5.2.1. Türkiyə Respublikasından Azərbaycan Respublikasına deportasiya və ekstradisya mexanizmlərindən sui-istifadə ... 13
Rauf Mirqədirov ... 13
Hüseyn Abdullayev ... 13
Fazil Qasımov ... 13
Gültəkin Hacıbəyli ... 14
Kamal İsayev ... 14
5.2.2. Digər ölkələrdə ekstradisiya və saxlanma mexanizmlərinin tətbiqi cəhdləri ... 14
Elxan Nuriyev ... 14
Daşqın Ağalarlı ... 14
Əlövsət Əliyev ... 14
Zülfüqar Mikayılzadə ... 15
Əfqan Sadıqov ... 15
Maqsud Mahmudov ... 15
5.2.3. Fəxrəddin Abbasov işi ... 16
5.2.4. Fikrət Hüseynli işi ... 17
5.3. Hüquqi təqib və qiyabi hökmlər ... 18
5.3.1. Abid Qafarov işi ... 19
5.3.2. Altay Göyüşov işi ... 20
5.3.3. Beydulla Manafov işi ... 21
5.3.4. Elşad Məmmədov işi ... 21

5.3.5. Ərəstun Oruclu işi ..... 22
5.3.6. Qənimət Zahid işi ..... 23
5.3.7. Qurban Məmmədov işi ..... 23
5.3.8. Məhəmməd Mirzəli işi ..... 25
5.3.9. Orxan Ağayev (və digərləri) işi ..... 25
5.3.10. Sevinc Osmanqızı işi ..... 26
5.3.11. Tural Sadıqlı işi ..... 26
5.4. Rəqəmsal nəzarət ..... 27
5.4.1. Pegasus casus proqramı ..... 27
5.4.2. Kamran Nəsirli nümunəsi ..... 28
5.5. Ailə üzvlərinə təzyiq ..... 29
5.5.1. Qohumların işdən çıxarılması halları ..... 29
5.5.2. Mülkiyyət hüququnun yağmalanması ..... 30
5.5.3. Ailə üzvlərinə inzibati cəza ..... 30
5.5.4. Mənəviyyata əl uzatma ..... 30
5.6. Xaricdə hücum və öldürmə ..... 31
5.6.1. Birbaşa fiziki zorakılıq ..... 31
5.6.2. Dolayı fiziki zorakılıq ..... 32
5.6.3. Öldürmə və ya ölümə gətirib çıxaran zorakılıq halları ..... 32
5.6.3.1. Vidadi İskəndərli ..... 33
5.6.3.2. Bayram Məmmədov ..... 33
5.6.3.3. Vüqar Rzayev ..... 33
5.6.3.4. Hüseyn Bakıxanov ..... 33
5.6.3.5. Daphne Caruana Galizia ..... 34
6. Nəticələr ..... 34
6.1. Sistemli və çoxsəviyyəli repressiya mexanizmi ..... 34
6.2. Avropa hüquq məkanına struktur təhdid ..... 34
6.3. Xaricdə yaşayan şəxslərin hüquqi və fiziki təhlükəsizliyinin aşınması ..... 34
6.4. Beynəlxalq hüquqi mexanizmlərin instrumentalizasiyası ..... 35
6.5. Rəqəmsal və qeyri-ənənəvi repressiya alətlərinin genişlənməsi ..... 35
6.6. Kollektiv təsir və çəkindirici effekt ..... 35
6.7. Presedent və yayılma riski ..... 35
6.8. Beynəlxalq cavab mexanizmlərinin yetərsizliyi ..... 35

7. Tövsiyələr ........................................................................................................................35
7.1. Avropa Şurası və AŞPA üçün ...................................................................................35
7.2. Üzv dövlətlər üçün .....................................................................................................36
7.3. Interpol üçün ..............................................................................................................36
7.4. Azərbaycan hakimiyyəti üçün ....................................................................................36
Yekun ....................................................................................................................................37
Azərbaycan Xalq Parlamenti haqqında qısa məlumat ..........................................................37

## 1. Qısa xülasə

Bu hesabatın məqsədi Azərbaycan Respublikasında son onilliklər ərzində formalaşmış və xüsusilə son illərdə intensivləşmiş transmilli repressiya praktikasını sistemli şəkildə sənədləşdirmək, onun hüquqi və institusional xüsusiyyətlərini təhlil etmək və bu fəaliyyətin Avropa Şurası məkanında insan hüquqlarının müdafiəsi sisteminə yaratdığı riskləri qiymətləndirməkdir.

Transmilli repressiya fenomeni beynəlxalq səviyyədə geniş şəkildə sənədləşdirilmiş və bir sıra nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən dövlətlərarası hüquqi əməkdaşlıq mexanizmlərinin sui-istifadəsi ilə müşayiət olunan sistemli təhlükə kimi qiymətləndirilmişdir.[1]

Hesabat, eyni zamanda, Avropa Şurası Parlament Assambleyası və üzv dövlətlər üçün bu fenomenə qarşı daha effektiv və koordinasiyalı reaksiyanın formalaşdırılması məqsədilə normativ və institusional əsasların təqdim edilməsinə yönəlmişdir.

Aparılmış təhlil göstərir ki, Azərbaycan kontekstində transmilli repressiya ayrı-ayrı halların təsadüfi toplusu deyil, əksinə, dövlətin siyasi nəzarət mexanizmlərinin sərhədlərdən kənara proyeksiyası kimi çıxış edən sistemli və çoxsəviyyəli siyasətdir. Bu siyasət çərçivəsində xaricdə yaşayan jurnalistlər, siyasi fəallar, hüquq müdafiəçiləri və mühacir icmalar müxtəlif formalarda təzyiqə məruz qalır.[2]

Hesabat göstərir ki, bu siyasət həm ikitərəfli siyasi əməkdaşlıq kanalları, həm də beynəlxalq hüquqi mexanizmlər vasitəsilə həyata keçirilir. Xüsusilə Türkiyə ilə münasibətlər çərçivəsində deportasiya və ekstradisiya prosedurlarının sürətləndirilmiş və qeyri-şəffaf tətbiqi müşahidə olunur, digər ölkələrdə isə Interpol mexanizmləri, ekstradisiya sorğuları və inzibati saxlanma vasitəsilə oxşar nəticələr əldə edilməyə çalışılır. Bu isə transmilli repressiyanın həm siyasi, həm də institusional kanallar vasitəsilə həyata keçirildiyini göstərir.

Hesabatın əsas tapıntıları aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Azərbaycan hakimiyyəti transmilli repressiyanı epizodik tədbirlər kimi deyil, institusionallaşmış və davamlı dövlət siyasəti kimi tətbiq edir;
- Xaricdə yaşayan tənqidçilərə qarşı fiziki müdaxilə, hüquqi təqib, rəqəmsal nəzarət və dolayı təzyiq mexanizmləri paralel şəkildə istifadə olunur ki, bu da repressiyanın çoxsəviyyəli və koordinasiyalı xarakterini göstərir;

---

[1] Freedom House, *Transnational Repression Reports Archive*, https://freedomhouse.org/report/transnational-repression/reports-archive
Human Rights Watch, *World Report – Azerbaijan*, https://www.hrw.org/world-report/2024/country-chapters/azerbaijan
Amnesty International, *Azerbaijan 2024*, https://www.amnesty.org/en/location/europe-and-central-asia/azerbaijan/report-azerbaijan/

[2] Freedom House, *Defending Democracy in Exile: Policy Responses to Transnational Repression*, https://freedomhouse.org/event/defending-democracy-exile-policy-responses-transnational-repression

- Deportasiya və ekstradisiya prosedurları, eləcə də Interpol mexanizmləri siyasi məqsədlərlə instrumentalizasiya edilir, nəticədə beynəlxalq hüquqi əməkdaşlıq sistemlərinin neytrallığı və etibarlılığı zədələnir;
- Bu praktika çərçivəsində qeyri-qanuni qaytarma (non-refoulement prinsipinin pozulması), ədalətli məhkəmə təminatlarının zəiflədilməsi və siyasi motivli cinayət təqibi halları müşahidə olunur;
- Transmilli repressiya yalnız hüquqi və inzibati təzyiqlə məhdudlaşmır, bəzi hallarda şəxslərin fiziki təhlükəsizliyi üçün risklər yaradır və şübhəli ölüm halları ilə müşayiət oluna bilər;
- Bu praktika yalnız fərdi hüquq pozuntuları ilə məhdudlaşmır, eyni zamanda Avropa Şurası məkanında ifadə azadlığı, hüquqi müəyyənlik və dövlətlərin beynəlxalq öhdəliklərinə riayət prinsiplərinə sistemli təhdid yaradır.

Hesabatın nəticələrinə əsasən aşağıdakı əsas tövsiyələr irəli sürülür:

- Avropa Şurası çərçivəsində transmilli repressiya fenomeninin ayrıca problem sahəsi kimi tanınması və bu istiqamətdə xüsusi monitorinq və hesabatlılıq mexanizmlərinin yaradılması;
- Üzv dövlətlər tərəfindən siyasi motivli ekstradisiya və deportasiya tələblərinə qarşı vahid və prinsipial hüquqi yanaşmanın tətbiqi, xüsusilə risk altında olan şəxslərin qorunmasının təmin edilməsi;
- Beynəlxalq polis əməkdaşlığı çərçivəsində, o cümlədən Interpol sistemində siyasi sui-istifadə hallarının qarşısını alan əlavə filtr və nəzarət mexanizmlərinin gücləndirilməsi;
- Azərbaycan Respublikasına qarşı beynəlxalq hüquq öhdəliklərinə riayət olunması, qiyabi cinayət təqiblərinə son qoyulması və siyasi motivli təqib praktikasının dayandırılması istiqamətində konkret çağırışların irəli sürülməsi.

Beləliklə, təqdim olunan hesabat transmilli repressiyanı yalnız milli səviyyədə insan hüquqları problemi kimi deyil, həm də Avropa hüquq məkanının bütövlüyünə və beynəlxalq hüquq sisteminin legitimliyinə yönəlmiş sistemli çağırış kimi qiymətləndirir və bu istiqamətdə kollektiv cavabın zəruriliyini əsaslandırır.

## 2. Metodologiya və mənbələr

Bu hesabat keyfiyyətli hüquqi və siyasi təhlil metodologiyasına söykənərək hazırlanmışdır və transmilli repressiya hallarının sistemli xarakterini üzə çıxarmağa yönəlmişdir. Araşdırma çərçivəsində məqsəd yalnız ayrı-ayrı faktların təsviri deyil, həm də onların ümumi siyasət kontekstində qiymətləndirilməsi və struktur əlaqələrinin müəyyən edilməsidir.

Hesabatın hazırlanmasında müxtəlif kateqoriyalı mənbələrdən istifadə edilmişdir. Bunlara beynəlxalq insan hüquqları təşkilatlarının hesabatları, o cümlədən Human Rights Watch, Freedom House və Amnesty International kimi qurumların materialları, beynəlxalq və milli məhkəmə qərarları, xüsusilə Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ, açıq mənbəli jurnalist araşdırmaları, habelə hüquqi və analitik tədqiqat materialları daxildir. Bu

mənbələr qarşılıqlı şəkildə müqayisə edilmiş və mümkün qədər təsdiqlənmiş faktlara üstünlük verilmişdir.

Faktların seçimi və sistemləşdirilməsi zamanı bir neçə əsas meyar rəhbər tutulmuşdur. İlk növbədə, *konkret hadisənin siyasi motivli təqib elementi daşıması* ehtimalı qiymətləndirilmişdir. Bununla yanaşı, həmin *hadisədə dövlət orqanlarının birbaşa və ya dolayı iştirakının olub-olmaması, fəaliyyətin transsərhəd xarakter daşıması və beynəlxalq hüquq normaları baxımından hüquqi qiymətləndirməyə açıq olması* nəzərə alınmışdır. Bu yanaşma təsadüfi və izolyasiya olunmuş halların deyil, məhz sistemli tendensiyanın müəyyən edilməsinə imkan verir.

Metodoloji baxımdan hesabatda transmilli repressiyanın formalarının təsnifatı üçün beynəlxalq praktikada qəbul olunmuş yanaşmalardan[3] istifadə edilmiş, xüsusilə empirik əsaslara söykənən modellər[4] nəzərə alınmışdır. Bu isə müxtəlif hadisələri vahid analitik çərçivədə qiymətləndirməyə və onların qarşılıqlı əlaqəsini üzə çıxarmağa imkan yaratmışdır.

Bununla yanaşı, araşdırma prosesində müəyyən məhdudiyyətlər də mövcud olmuşdur. Azərbaycan daxilində müstəqil informasiya mənbələrinin məhdudluğu, dövlət orqanlarının şəffaflıq səviyyəsinin aşağı olması, habelə təqib olunan şəxslərin təhlükəsizlik səbəbilə məlumat paylaşmaqdan çəkinməsi bəzi hallarda faktların tam şəkildə sənədləşdirilməsini çətinləşdirmişdir. Eyni zamanda, bəzi hadisələr üzrə məlumatların yalnız dolayı mənbələr vasitəsilə əldə edilməsi onların əlavə yoxlanmasını zəruri etmişdir.

Bütün bu məhdudiyyətlərə baxmayaraq, istifadə olunmuş metodologiya və mənbə bazası təqdim olunan nəticələrin etibarlılığını təmin etməyə imkan verir və hesabatda əks olunan faktların təsadüfi deyil, müəyyən edilə bilən və təhlil oluna bilən sistemli praktikanın tərkib hissəsi olduğunu göstərir.

## 3. Azərbaycanda siyasi rejimin struktur xüsusiyyətləri və transmilli repressiyanın formalaşma konteksti

Azərbaycan Respublikasında mövcud siyasi sistem uzunmüddətli hakimiyyət konsentrasiyası və institusional balans mexanizmlərinin zəifliyi ilə xarakterizə olunur. İcra hakimiyyəti dövlət idarəçiliyinin əsas mərkəzi kimi çıxış edir və qərarların qəbulu prosesində real siyasi rəqabət və effektiv parlament nəzarəti yox səviyyədədir. Bu şəraitdə hakimiyyətin müxtəlif qolları arasında nəzərdə tutulan funksional bölgü faktiki olaraq formal xarakter daşıyır.[5]

Məhkəmə sistemi struktur baxımından müstəqil institut kimi nəzərdə tutulsa da, praktikada onun icra hakimiyyətindən asılılığı geniş şəkildə qeyd olunur.[6] Xüsusilə siyasi xarakterli

---

[3] Freedom House, *Out of Sight, Not Out of Reach: The Global Scale and Scope of Transnational Repression*, https://freedomhouse.org/sites/default/files/2021-02/Complete_FH_TransnationalRepressionReport2021_rev020221.pdf

[4] Freedom House, Defending Democracy in Exile: Policy Response to Transnational Repression, https://freedomhouse.org/sites/default/files/2022-05/Complete_TransnationalRepressionReport2022_NEW_0.pdf

[5] Freedom House, *Freedom in the World 2025: Azerbaijan*, https://freedomhouse.org/country/azerbaijan/freedom-world/2025

[6] Human Rights Watch, *Azerbaijan: Events of 2024*

işlərdə məhkəmə qərarlarının qərəzsizliyi və ədalətli məhkəmə prinsiplərinə uyğunluğu ilə bağlı ciddi suallar mövcuddur. Bu vəziyyət hüquqi müdafiə mexanizmlərinin effektivliyini zəiflədir və siyasi təqiblərin hüquqi prosedurlar vasitəsilə legitimləşdirilməsi imkanını artırır.

Media mühiti də eyni şəkildə məhdudlaşdırıcı çərçivədə fəaliyyət göstərir. Müstəqil jurnalistika üzərində inzibati, hüquqi və iqtisadi təzyiq alətləri geniş tətbiq olunur, nəticədə tənqidi media resurslarının əhəmiyyətli hissəsi ya fəaliyyətini dayandırır, ya da ölkə xaricində fəaliyyət göstərməyə məcbur olur.[7] Bu isə informasiya mühitində plüralizmin azalmasına və ictimai nəzarət imkanlarının zəifləməsinə gətirib çıxarır.

Bu struktur şəraitdə siyasi müxalifətin institusional fəaliyyəti məhdudlaşdırılır, vətəndaş cəmiyyətinin müstəqil təşəbbüsləri daraldılır və ictimai-siyasi fəallıq üzərində dolayı və birbaşa nəzarət mexanizmləri gücləndirilir. Nəticə etibarilə, tənqidi mövqedə olan şəxslər üçün ölkə daxilində təhlükəsiz və azad fəaliyyət imkanlarının məhdudlaşması siyasi mühacirətin artmasına səbəb olur.[8]

Məhz bu kontekstdə transmilli repressiya fenomeni formalaşır. Dövlət daxilində tətbiq olunan nəzarət və təzyiq mexanizmləri yalnız milli sərhədlərlə məhdudlaşmır, əksinə, xaricdə fəaliyyət göstərən mühacir icmalarına və fərdlərə yönəlir. Bu baxımdan transmilli repressiya Azərbaycan siyasi rejiminin daxili xüsusiyyətlərinin məntiqi davamı kimi çıxış edir və onun sərhədlərdən kənarda proyeksiyası kimi qiymətləndirilə bilər.

## 4. Azərbaycan Respublikasında transmilli repressiyanın sistemli xarakteri

Aparılmış təhlil göstərir ki, Azərbaycan kontekstində transmilli repressiya ayrı-ayrı hadisələrin təsadüfi toplusu kimi qiymətləndirilə bilməz. Əksinə, mövcud faktlar bu fəaliyyətin ardıcıl, koordinasiyalı və məqsədyönlü şəkildə həyata keçirilən dövlət siyasəti olduğunu deməyə əsas verir.

*Müşahidə olunan hallar* zaman, məkan və tətbiq olunan vasitələr baxımından müəyyən bir məntiqə və davamlılığa malikdir. Fərqli ölkələrdə baş verən hadisələrin oxşar metodlarla həyata keçirilməsi, eyni tip hədəf qruplarının seçilməsi və müxtəlif alətlərin paralel şəkildə tətbiqi bu fəaliyyətin spontan deyil, planlı və institusionallaşmış xarakter daşıdığını göstərir.

Bu çərçivədə diqqət çəkən əsas xüsusiyyətlərdən biri transmilli repressiyanın çoxsəviyyəli struktura malik olmasıdır. Dövlət orqanları tərəfindən bir tərəfdən hüquqi mexanizmlər: qiyabi cinayət işləri, ekstradisiya tələbləri və beynəlxalq axtarış prosedurları işə salınır, digər tərəfdən isə qeyri-rəsmi və dolayı vasitələr: fiziki təzyiq, rəqəmsal nəzarət və ailə üzvlərinə yönəlmiş basqılar paralel şəkildə tətbiq olunur. Bu isə vahid strateji yanaşmanın mövcudluğunu göstərir.

---

https://www.hrw.org/world-report/2025/country-chapters/azerbaijan

[7] Reporters Without Borders, *2024 World Press Freedom Index: Azerbaijan,* https://rsf.org/en/country/azerbaijan

[8] Abzas.info, *"Human Rights Watch" illik hesabatını yayımladı: "Azərbaycanda narahatedici insan haqları pozuntuları davam edir"*, https://abzas.info/en/2024/1/human-rights-watch-dunya-hesba16aa52-0/

Eyni zamanda, transmilli repressiyanın davamlılığı onun uzunmüddətli xarakterini təsdiqləyir. Müxtəlif illərdə və fərqli siyasi kontekstlərdə qeydə alınmış hadisələr göstərir ki, bu praktika situativ reaksiyalardan ibarət deyil, əksinə, hakimiyyətə qarşı tənqidi fəaliyyətin, coğrafiyasından asılı olmayaraq, nəzarətdə saxlanılmasına yönəlmiş sabit siyasət xəttdir.

Bu siyasətin yalnız praktik deyil, həm də ideoloji səviyyədə legitimləşdirildiyini göstərən mühüm faktlardan biri hakimiyyətə yaxın siyasi fiqurların açıq bəyanatlarıdır. Bu kontekstdə Zahid Oruc xüsusi qeyd olunmalıdır. O, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmaqla yanaşı, hakimiyyətə yaxın siyasi fiqur kimi uzun illərdir ictimai-siyasi diskursda fəal rol oynayır. Eyni zamanda, o, bir neçə dəfə prezident seçkilərində formal rəqib qismində iştirak etmiş və hakimiyyətin siyasi xəttinə uyğun mövqe nümayiş etdirmiş, habelə dövlət tərəfindən formalaşdırılmış ictimai-siyasi təşəbbüslərdə rəhbər vəzifələr tutmuşdur. Bu baxımdan onun çıxışları fərdi rəy deyil, daha çox hakimiyyətin ideoloji yanaşmasının artikulyasiyası kimi qiymətləndirilə bilər. Belə ki, onun tərəfindən səsləndirilmiş fikirlərdə xaricdə yaşayan və hakimiyyəti tənqid edən şəxslərin "legitim hədəflər" kimi təqdim olunması və onların "zərərsizləşdirilməsi"nin mümkünlüyünün vurğulanması transmilli repressiyanın yalnız gizli mexanizmlərlə deyil, eyni zamanda açıq siyasi diskurs vasitəsilə də əsaslandırıldığını göstərir.[9] Bu cür bəyanatlar dövlətin faktiki praktikasını normativ baxımdan möhkəmləndirir və zorakı və ya qeyri-hüquqi tədbirlərin legitimləşdirilməsi istiqamətində ideoloji baza formalaşdırır.

Bu siyasətin əsas hədəfi yalnız konkret fərdlərin susdurulması deyil. Daha geniş mənada məqsəd xaricdə fəaliyyət göstərən Azərbaycan mənşəli mühacir icmaları arasında qorxu mühiti formalaşdırmaq, özünüsenzura yaratmaq və kollektiv siyasi fəallığı zəiflətməkdir. Beləliklə, transmilli repressiya təkcə hüquqi və ya fiziki təqib vasitəsi deyil, həm də psixoloji və sosial təsir aləti kimi çıxış edir.

Nəticə etibarilə, mövcud faktların sistemli təhlili belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycan Respublikasında transmilli repressiya ayrı-ayrı struktur pozuntularının nəticəsi deyil, dövlətin siyasi nəzarət strategiyasının ayrılmaz tərkib hissəsidir. Bu isə onun qiymətləndirilməsini yalnız fərdi hüquq pozuntuları səviyyəsində deyil, daha geniş institusional və beynəlxalq hüquqi kontekstdə aparmağı zəruri edir.

## 5. Transmilli repressiyanın formaları və faktlar

Transmilli repressiya müasir insan hüquqları diskursunda dövlətlərin öz sərhədlərindən kənarda yaşayan tənqidçilərə qarşı həyata keçirdiyi çoxşaxəli təzyiq mexanizmlərini ifadə edən kompleks fenomen kimi qəbul olunur.[10] Bu fenomenin əsas xüsusiyyəti onun müxtəlif

[9] Meydan.TV, *Zahid Oruc: "Prezidenti təhqir edənlər legitim hədəflər kimi hər cür zərərsizləşdirilməlidir"*, https://www.meydan.tv/az/article/zahid-oruc-prezidenti-tehqir-edenler-legitim-hedefler-kimi-her-cur-zerersizlesdirilmelidir/
[10] Adamson & Han, *Diasporic geopolitics and differentiated policies of transnational repression*, https://doi.org/10.1080/01419870.2026.2624626

hüquqi və qeyri-hüquqi alətlərin paralel tətbiqi ilə həyata keçirilməsi və fərdi hallardan daha çox sistemli davranış modelini əks etdirməsidir.[11]

Bu hesabatda təqdim olunan təhlil beynəlxalq praktikada geniş istifadə olunan yanaşmalara, xüsusilə Freedom House tərəfindən formalaşdırılmış transmilli repressiya təsnifatına əsaslanır.[12] Həmin təsnifat transmilli repressiyanı müxtəlif taktik və alətlər üzrə qruplaşdırmağa imkan verir və dövlətlərin bu sahədə fəaliyyətini sistemli şəkildə təhlil etmək üçün effektiv analitik çərçivə təqdim edir.

Bu metodoloji yanaşmaya uyğun olaraq, Hesabatda Azərbaycan Respublikasında transmilli repressiyanın əsas formaları altı kateqoriya üzrə təqdim edilir: 1) fiziki müdaxilə və oğurlama; 2) deportasiya və ekstradisiya; 3) hüquqi təqib və qiyabi hökmlər; 4) rəqəmsal nəzarət; 5) ailə üzvlərinə qarşı dolayı təzyiq; 6) xaricdə fiziki hücum və öldürmə halları.[13]

Aşağıda bu kateqoriyaların hər biri üzrə konkret faktlar və nümunələr əsasında aparılmış təhlil təqdim olunur.

### 5.1. Fiziki oğurlama və zorakılıq

Transmilli repressiyanın ən sərt və açıq formalarından biri xaricdə yaşayan şəxslərin zorla saxlanılması, oğurlanması, qaçırılması və onların iradəsi əleyhinə Azərbaycan ərazisinə gətirilməsidir. Bu tip hallar yalnız fərdi hüquq pozuntusu kimi deyil, eyni zamanda digər dövlətlərin yurisdiksiyasına müdaxilə və beynəlxalq hüququn fundamental prinsiplərinin pozulması kimi qiymətləndirilməlidir.

#### 5.1.1. Əfqan Muxtarlı işi

Əfqan Muxtarlı 1979-cu il təvəllüdlü azərbaycanlı müstəqil jurnalist və korrupsiya araşdırmaları ilə tanınan media fəalı idi. O, Azərbaycanda yüksək səviyyəli korrupsiya, hakimiyyət strukturlarının fəaliyyəti və insan hüquqlarının pozuntuları ilə bağlı məqalələr yazaraq cəmiyyətin diqqətini bu məsələlərə yönəldirdi. Müxtəlif mənbələrə görə, onun fəaliyyəti Azərbaycan hakimiyyəti tərəfindən tənqidi və təhlükə kimi qəbul olunmuşdu. Hakimiyyət orqanlarının artan təzyiqləri və təhlükə risklərinə görə Muxtarlı 2015-ci ildə Gürcüstana köç edərək Tbilisidə fəaliyyətini davam etdirmişdir.

2017-ci il mayın 29-da Muxtarlı Tbilisidə yaşadığı evin yaxınlığında müəmmalı şəkildə yoxa çıxmış və bir neçə saat sonra onun Azərbaycan hüquq-mühafizə orqanlarının nəzarətində olduğu məlum olmuşdur.[14] Gürcüstan polisinin və başqa dövlət orqanlarının əməliyyata necə

---

[11] Dukalskis et al., *Transnational repression: data advances, comparisons, and challenges,* https://doi.org/10.1080/2474736X.2022.2104651
[12] Freedom House, Transnational Repression: Understanding and Responding to Global Authoritarian Reach, https://freedomhouse.org/report/transnational-repression
[13] Atakhan Abilov, *Transnational Repression and International Law: An Analysis of the Azerbaijani Experience,* https://bakuresearchinstitute.org/en/transnational-repression-and-international-law-an-analysis-of-the-azerbaijani-experience/
[14] Amnesty International, *Georgia/Azerbaijan: Exiled Azerbaijani journalist at risk of torture after cross-border abduction*

cəlb olunduğu ilə bağlı rəsmi açıqlamalar məhdud və qeyri-şəffaf olmuşdur. Muxtarlının özü iddia etmişdir ki, o, zorla tutulmuş, gözləri bağlanaraq avtomobillə sərhəddən keçirilmiş və qanunsuz şəkildə Azərbaycan ərazisinə gətirilmişdir. Bu hadisə Gürcüstanın ərazi və hüquq-mühafizə səlahiyyətləri ilə bağlı ciddi suallar doğurmuşdur.[15]

Əfqan Muxtarlının saxlanılması və sonrakı məhkəmə prosesi beynəlxalq hüquq və insan hüquqları təşkilatları, o cümlədən Avropa Parlamentində geniş müzakirə obyektinə çevrilmişdir. 2017-ci ilin iyun ayında Avropa Parlamenti müvafiq qətnamə qəbul edərək Muxtarlının yoxa çıxması, zorla ölkəyə gətirilməsi və həbs olunması ilə bağlı dərin narahatlıq ifadə etmiş, Gürcüstan hakimiyyətini hadisəni tam, şəffaf və səmərəli şəkildə araşdırmağa çağırmış, Azərbaycan hakimiyyətindən isə jurnalistin tam azad edilməsi və bütün fundamental hüquqlarının təmin olunması tələb edilmişdir.[16]

Həmçinin Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) 2024-cü il sentyabrın 5-də Muxtarlı işi üzrə qətnamə qəbul etmişdir.[17] Məhkəmə qərarında həm Gürcüstanın, həm də Azərbaycanın Konvensiyanın bir sıra maddələrini pozduğu müəyyən olunmuşdur. Gürcüstan tərəfi iddia olunan zorla aparma və onun effektiv araşdırılmaması ilə bağlı Konvensiyanın azadlıq və təhlükəsizlik hüququnu (5-ci maddə) pozmaqda təqsirli bilinmiş, Azərbaycan tərəfi isə Muxtarlının saxlanılması, telefonunun məhkəmə qərarı olmadan yoxlanılması və digər prosedur pozuntuları ilə əlaqədar Konvensiyanın 5(3) və 8-ci maddələrinə uyğun öhdəlikləri pozmaqda günahlandırılmışdır. Hər iki dövlət məhkəmə tərəfindən nəzərdə tutulmuş kompensasiya öhdəliklərinə məhkum edilmişdir.

Əfqan Muxtarlı işi transmilli repressiyanın ən aydın və sərt nümunələrindən biridir. Bu hadisə yalnız fərdi hüquq pozuntusu deyil, həm də digər dövlətin ərazi suverenliyinə müdaxilədir. Bu zaman hüquqi prosedurlar zorakı hərəkətlərlə əvəz olunub və beynəlxalq insan hüquqları standartları ciddi şəkildə pozulub. Bu baxımdan Muxtarlı işi transmilli repressiya modelinin empirik nümunəsi kimi Hesabatın əsas sübut bazasını təşkil edir.

### 5.1.2. Elvin İsayev işi

Elvin İsayev azərbaycanlı bloger, ictimai fəal və sosial media tənqidçisi idi. O, sosial şəbəkələrdə və onlayn platformalarda Azərbaycan hakimiyyətinin korrupsiya hallarını və insan hüquqları ilə bağlı siyasətini sərt şəkildə tənqid etmiş, xüsusilə dövlət başçısını "diktator" kimi xarakterizə etmişdir. İsayev 1998-ci ildən Rusiya Federasiyasında yaşayıb və orada fəaliyyət göstərmişdir.

---

https://www.amnesty.org/en/latest/news/2017/05/georgia-azerbaijan-exiled-azerbaijani-journalist-at-risk-of-torture-2/

[15] Institute for War and Peace Reporting, *Azerbaijan: IWPR Journalist "Abducted"* https://iwpr.net/global-voices/azerbaijan-iwpr-journalist-abducted

[16] European Parliament, *Resolution of 15 June 2017 on the case of Afgan Mukhtarli and the situation in Azerbaijan (2017/2722(RSP))*, https://www.europarl.europa.eu/doceo/document/TA-8-2017-06-15_EN.html

[17] Hudoc.echr.coe.int, *CASE OF MUKHTARLI v. AZERBAIJAN AND GEORGIA* https://hudoc.echr.coe.int/eng?i=001-235491

2019-cu ilin sentyabr ayında Rusiya məhkəməsi Elvin İsayevin Rusiya vətəndaşlığından məhrum edilməsi barədə qərar qəbul etmiş və onun yaxın gələcəkdə Azərbaycana deportasiya ediləcəyi gözlənilmişdir.[18] Bu proses Rusiya və Azərbaycanın arzuolunmaz şəxslərin qarşılıqlı təqibi sahəsində əməkdaşlıq etmələri ilə bağlı şübhələrə səbəb olmuşdur.

Lakin həmin vaxt Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) öz Reqlamentinin 39-cu Qaydası çərçivəsində Elvin İsayevin Rusiya Federasiyasından Azərbaycana deportasiya edilməsinin qadağan olunması barədə Qərar qəbul etdi. Bu Qərar şəxsə qarşı ciddi təhlükə riski və ifadə azadlığı ilə bağlı narahatlıqlar nəzərə alınmaqla qəbul edilmişdir. Bu qərardan sonra Elvin İsayev Rusiyanı tərk edərək Ukraynaya getmişdir. Ukrayna KİV-lərinin məlumatına görə, o, 2019-cu il dekabrın 12-də Kiyevdə qəfil "yoxa çıxmışdır". Bir neçə gün sonra, dekabrın 16-sında hüquq-müdafiə təşkilatı Amnesty International bəyan etmişdir ki, İsayev Ukraynadan qeyri-qanuni şəkildə deportasiya edilərək Azərbaycana gətirilib, bu isə AİHM-nin müvafiq Qərarının pozulması ilə nəticələnmişdir. Təşkilatın rəsmi bəyanatında vurğulanır ki, blogerə qarşı tətbiq olunan tədbir hüquqi prosedurlardan çox siyasi motivli zorakı çıxarış xarakteri daşıyır.[19]

Amnesty International bəyan etmişdir ki, İsayevin deportasiyası Ukrayna prezidenti Vladimir Zelenskinin planlaşdırılmış səfərindən az əvvəl həyata keçirilmiş və bu, onun qeyri-şəffaf və siyasi motivli xarakter daşıdığını düşündürür. Həmin bəyanatda həmçinin qeyd olunur ki, Ukrayna hakimiyyətinin AİHM-nin müvəqqəti tədbir qərarını nəzərə almaması insan hüquqları sisteminə ziddir. Belə ki, işgəncə və qəddar rəftarla qarşılaşma riski altına düşən şəxsi zorla ölkəyə qaytarmaq olmaz.[20]

Azərbaycan hökuməti bu işlə bağlı olaraq İsayevə qarşı aparılan cinayət istintaqının hansı maddə ilə aparıldığını rəsmi şəkildə açıqlamamışdır. Eyni zamanda, ekspertlər qeyd etmişlər ki, İsayev barəsində Azərbaycanda 2019-cu il avqustun 22-də məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilmişdir və bu qərarın mövcudluğu ekstradisiya və ya deportasiya prosedurlarına təsir etməli idi. Lakin belə bir rəsmi Interpol sorğusunun olub-olmaması açıq şəkildə müəyyən edilməmişdir.

Elvin İsayev işi bir neçə beynəlxalq hüquqi normativ məqamı ortaya qoyur:

- AİHM-nin məlum Rusiyadan Azərbaycana deportasiyanın qadağan olunması Qərarı İsayevin siyasi motivli təqib riski altında olduğunu, hüquqi mexanizmlərin sui-istifadə olunduğunu və fərdin təhlükəsizliyinin təmin edilməsinin vacibliyini sənədləşdirmişdir;

---

[18] Reuters, *Russia strips Azeri blogger of citizenship and moves to deport him, 30 August 2019* https://www.reuters.com/article/world/russia-strips-azeri-blogger-of-citizenship-and-moves-to-deport-him-idUSKCN1VK29S/

[19] Khpg.org, *Azerbaijan opposition blogger illegally deported from Ukraine despite ECHR ruling*, https://khpg.org/en/1576451055

[20] Amnesty International, *Azerbaijan authorities must release Talysh activists (including Elvin Isayev),* https://www.amnesty.org/en/wp-content/uploads/2021/05/EUR5524922020ENGLISH.pdf

- Ukraynadan zorla çıxarılması isə AİHM-nin sözü gedən Qərarının pozulması kimi qiymətləndirilir və bu, dövlətlərin beynəlxalq məhkəmə qərarlarına hörmət prinsipinin də pozulması riskini yaradır;
- AİHM-nin Qərarının icra olunmaması və deportasiyanın həyata keçirilməsi nəticəsində şəxsin azadlıq və təhlükəsizlik hüququ, habelə qeyri-qaytarılma (non-refoulement) prinsipi kontekstində ciddi narahatlıq doğurur.

Bu hadisə transmilli repressiyanın hüquqi mexanizmlərdən sui-istifadə yolu ilə həyata keçirildiyini göstərən ən geniş sənədləşdirilmiş faktlardan biridir və beynəlxalq hüquq müstəvisində ciddi narahatlıq doğurur.

### 5.1.3. Zahirəddin İbrahimov işi

Zahiraddin İbrahimov 1954-cü il təvəllüdlü talış tarixçi və fəal idi. O, 1997-ci ildə Rusiyanın Yekaterinburq şəhərinə köçmüş, burada etnik talış mədəniyyəti, tarixi və hüquqları ilə bağlı fəaliyyət göstərmişdir.

2002-ci ildə İbrahimov Rusiya Federasiyası vətəndaşlığını almış və 2007-ci ildə rəsmi olaraq Azərbaycan vətəndaşlığını tərk etmiş və yalnız Rusiya pasportu ilə yaşamışdır. 2014-cü ildə o, Azərbaycanı ziyarət etmək cəhdində Lənkəran hava limanında “arzu olunmayan şəxs” kimi saxlanılmış və Rusiyaya geri göndərilmişdi.

Bu işlə bağlı ən dramatik hadisə 2025-ci ilin martında baş vermişdir. 26 mart 2025-ci il səhər saatlarında Yekaterinburqda işə gedərkən İbrahimov qəfil yoxa çıxmış, evdən çıxdıqdan 15 dəqiqə sonra onunla əlaqə kəsilmişdi. Onun taleyi ilə bağlı ilk rəsmi məlumat aprelin 11-də yaxınlarına verilmişdi. Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətindən (DTX) göndərilmiş məktubda İbrahimovun “dövlətə xəyanət”, separatizm və başqa ağır ittihamlarla saxlanıldığı bildirilmişdi.[21]

Tezliklə müəyyən olmuşdur ki, İbrahimov fiziki olaraq Rusiyanın Yekaterinburq şəhərindən Azərbaycan ərazisinə gətirilib, bu proses isə adi ekstradisiya proseduru çərçivəsində deyil, qeyri-açıq “xüsusi əməliyyat” şəklində həyata keçirilib. İbrahimovun yaxınlarının bildirdiyinə görə, onun yoxa çıxması ilə eyni vaxtda DTX tərəfindən onun doğulduğu kəndə ünvanlanan məktub hazırlanmış, bu isə “əməliyyatın əvvəlcədən planlandığı” təəssüratını doğurmuşdur.

İbrahimovun Bakıya gətirilməsinin təfərrüatı hələlik rəsmi şəkildə açıqlanmamışdır. Rusiya vətəndaşı olduğu halda onun Azərbaycana transferi Rusiya qanunlarına görə mümkün deyil. Buna görə də Rusiya Xarici İşlər Nazirliyinin bəyanatında bildirilmişdir ki, İbrahimov

[21] Human Rights Watch, Azerbaijan Expands Crackdown on Activists in Exile, https://www.hrw.org/news/2026/02/10/azerbaijan-expands-crackdown-on-activists-in-exile

əvvəllər qanunsuz hərəkətlərinə görə Rusiya vətəndaşlığından məhrum edilərək Azərbaycan vətəndaşı hesab olunur və buna əsasən Azərbaycana verilib.[22]

Mediada İbrahimov "Azərbaycanın əleyhinə fəaliyyət göstərən, Ermənistan strukturları ilə əlaqələrdə olan" şəxs kimi təqdim edilmiş, 2005-2020-ci illər ərzində onun İrəvanda keçirilmiş konfranslarda Azərbaycan əleyhinə çıxışlar etdiyi irəli sürülmüşdür.[23]

Azərbaycan Respublikasının DTX tərəfindən başladılmış cinayət işi çərçivəsində İbrahimov dövlətə xəyanət, dövlət əleyhinə çağırışlar (xarici strukturlar tərəfindən), etnik nifrət və düşmənçilik yaratmaq kimi ittihamlarla məsuliyyətə cəlb olunmuşdur.[24]

Bu hadisə Avropa Şurası məkanında transmilli repressiya kontekstində ciddi narahatlıq doğurur. Uzun müddət Rusiya vətəndaşı kimi yaşamış İbrahimov fiziki şəkildə oğurlanaraq Rusiyadan Azərbaycana gətirilməsi adi ekstradisiya prosedurlarına uyğun şəkildə izah edilmir və ona yönəlik dövlətə xəyanət və etnik nifrət ittihamları müstəqil hüquq müdafiəçilərdə ciddi mübahisələr doğurur və bu tip ittihamların bir qayda olaraq siyasi fəaliyyətlə bağlı olduğu bildirilir.

İbrahimov hadisəsi şəxsi azadlıq və təhlükəsizlik hüququnun, dövlətlərarası hüquqi əməkdaşlıq prosedurlarının və digər dövlətlərin yurisdiksiyasına hörmət prinsipinin pozulması kimi qiymətləndirilməlidir. Xaricdə yaşayan uzunmüddətli Rusiya vətəndaşının hüquqi prosedurlar olmadan və qeyri-şəffaf şəkildə DTX təcridxanasına gətirilməsi beynəlxalq hüquq normalarına uyğun deyil və transmilli repressiyanın real praktikasının nümunəsi kimi diqqətəlayiqdir.

### 5.2. Deportasiya və ekstradisiya

Transmilli repressiyanın təkrar və hüquqi görünüşlü formalarından biri deportasiya və ekstradisiya mexanizmlərindən siyasi məqsədlərlə sui-istifadədir. Beynəlxalq hüquqda, o cümlədən Avropa İnsan Hüquqları Konvensiyası və BMT Qaçqınların Statusu haqqında 1951-ci il Konvensiyasında deportasiya və ekstradisiya prosedurları müəyyən hüquqi zəmanətlərlə tənzimlənir və adətən ciddi hüquqi nəzarətə tabedir. Bu zəmanətlərə baxmayaraq, bəzi hallarda dövlətlər bu prosedurları siyasi rəqiblərini "zərərsizləşdirmək" üçün alət kimi istifadə edirlər.

Siyasi motivli ekstradisiya və deportasiya halları iki əsas mexanizm vasitəsilə həyata keçirilə bilər:

- Milli miqrasiya qanunvericiliyi və inzibati prosedurların sui-istifadəsi;

---

[22] Eanews.ru, *МИД РФ объяснил ситуацию с «похищением» из Екатеринбурга азербайджанского оппозиционера*, https://eanews.ru/mir/20250703095222/mid-rf-ob-yasnil-situatsiyu-s-pohischeniem-iz-ekaterinburga-azerbaydzhanskogo-oppozitsionera

[23] Abzas.info, *DTX Rusiya vətəndaşı olan talış tarixçisini Azərbaycana xəyanətdə ittiham edir*, https://abzas.info/az/2025/4/dtx-rusiya-vtndas-olan-tal06e508fa-e/

[24] Sitat.info, *Zahirəddin İbrahimovun həbs müddəti uzadıldı*, https://sitat.info/news/66507/zahireddin-ibrahimovun-hebs-muddeti-uzadildi

- Interpol mexanizmlərinin siyasi məqsədlərlə istifadə edilməsi və siyasi motivli "qırmızı bülleten"lərin tətbiqi.

Aşağıda bu formaların transmilli repressiya kontekstində tətbiqi əvvəlcə sistemli regional praktika (Türkiyə nümunəsi) əsasında ümumiləşdirilir, daha sonra digər ölkələrdə müşahidə olunan analoji hallar vasitəsilə genişləndirilir və nəhayət, konkret fərdi işlər: Fəxrəddin Abbasov və Fikrət Hüseynli işləri üzrə faktlar, kontekst və hüquqi qiymətləndirmə ilə təhlil edilir.

### 5.2.1. Türkiyə Respublikasından Azərbaycan Respublikasına deportasiya və ekstradisya mexanizmlərindən sui-istifadə

Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında formalaşmış xüsusi siyasi münasibətlər çərçivəsində hüquqi prosedurların formal xarakter daşıması və faktiki olaraq siyasi sifarişlərin icrasına yönəlməsi ciddi narahatlıq doğurur. Mövcud faktlar göstərir ki, Azərbaycan hakimiyyətinin tələbi ilə bir sıra şəxslər Türkiyə ərazisində lazımi hüquqi təminatlar, o cümlədən ədalətli məhkəmə araşdırması və siyasi motivlərin qiymətləndirilməsi olmadan Azərbaycana təhvil verilmişdir.

Bu praktika xüsusilə siyasi motivli təqiblərə məruz qalan aşağıdakı şəxslərə münasibətdə özünü açıq şəkildə büruzə verib:

**Rauf Mirqədirov** jurnalist kimi fəaliyyət göstərmiş və Türkiyədə akkreditə olunmuş media nümayəndəsi olmuşdur. Onun jurnalist fəaliyyətində Azərbaycan hakimiyyətinin maraqlarına zidd mövqelər sərgiləməsindən sonra Bakı tərəfindən irəli sürülən tələblə Türkiyədə saxlanılmış və sürətli şəkildə Azərbaycana təhvil verilmişdi.[25] Sonradan Azərbaycanda həbs edilmiş, cəza müddətini başa vurduqdan sonra Avropaya mühacirət etmişdir.

**Hüseyn Abdullayev** keçmiş deputat olub, Almaniyada siyasi sığınacaq almış şəxsdir. Türkiyəyə səfəri zamanı, hətta hava nəqliyyat vasitəsində olarkən saxlanılmış və Azərbaycana ekstradisiya edilmişdi. Hazırda Azərbaycanda həbsdə saxlanılır. Bu hal beynəlxalq hüququn, xüsusilə qaçqınların qorunmasına dair prinsiplərin kobud pozuntusu kimi qiymətləndirilə bilər.[26]

**Fazil Qasımov** akademik tədqiqatçı kimi tanınan şəxsdir. Azərbaycanda siyasi xarakterli hesab edilən cinayət işi çərçivəsində, iqtisadçı Qubad İbadoğlu ilə əlaqələndirilərək Türkiyədə saxlanılmış və Azərbaycana təhvil verilmişdir. Hazırda həbsdədir.[27]

---

[25] Hrw.org, *Turkey/Azerbaijan: Journalist Deported, Imprisoned Baku Should Free Reporter; Ankara Should Investigate Expulsion,* https://www.hrw.org/news/2014/04/24/turkey/azerbaijan-journalist-deported-imprisoned?utm_source=chatgpt.com

[26] Ohchr.org, *Azerbaijan: UN experts urge release of ailing Government critic Huseyn Abdullayev*, https://www.ohchr.org/en/press-releases/2021/04/azerbaijan-un-experts-urge-release-ailing-government-critic-huseyn

[27] Rferl.org, *Azerbaijani Economist Detained in Turkey, Handed to Baku,* https://www.rferl.org/a/azerbaijan-economist-detained-turkey/32539156.html

**Gültəkin Hacıbəyli** keçmiş deputat və ultra-sağ siyasi baxışları ilə seçilən ictimai fiqurdur. Müvəqqəti yaşayış icazəsi ilə Türkiyədə yaşadığı dövrdə Azərbaycan tərəfinin tələbi ilə saxlanılmış və deportasiya edilmişdir.[28] Bu prosesin şəffaf hüquqi prosedurlara uyğun aparıldığına dair yetərli məlumat mövcud deyil.

**Kamal İsayev** etnik talış mənşəli, Rusiya Federasiyası vətəndaşıdır. Türkiyəyə şəxsi səfəri zamanı sərhəd nəzarəti mərhələsində saxlanılmış və Azərbaycan tərəfinə təhvil verilmişdir. Prosedurun hüquqi əsasları və şəffaflığı barədə məlumatlar qeyri-müəyyəndir. Hazırda Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin istintaq təcridxanasında saxlanıldığı bildirilir.[29]

Bu hallar göstərir ki, Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq çərçivəsində ekstradisiya mexanizmi bəzən hüquqi prosedurlardan daha çox siyasi alət kimi istifadə olunur. Bu isə həm beynəlxalq hüququn fundamental prinsiplərinə, o cümlədən non-refoulement (geri qaytarmama) prinsipinə, həm də insan hüquqlarının qorunması üzrə öhdəliklərə ziddir.

### 5.2.2. Digər ölkələrdə ekstradisiya və saxlanma mexanizmlərinin tətbiqi cəhdləri

Azərbaycan hakimiyyətinin transmilli repressiya siyasəti yalnız Türkiyə ilə məhdudlaşmır, digər ölkələrdə də oxşar hallar müşahidə olunmuşdur.

**Elxan Nuriyev** Ukrayna vətəndaşı kimi Ukraynadan Polşaya daxil olduğu zaman İnterpol xətti ilə saxlanılmışdır. Bir neçə ay davam edən saxlanmadan sonra beynəlxalq hüquq müdafiə təşkilatlarının müdaxiləsi nəticəsində azad edilmişdir.[30] Bu hadisə İnterpol mexanizmlərindən sui-istifadə ehtimalını gündəmə gətirir.

**Daşqın Ağalarlı** Avropa ölkələrindən birində siyasi sığınacaq almış şəxs kimi Polşaya daxil olduğu zaman polis tərəfindən Azərbaycanın tələbi ilə İnterpol vasitəsilə saxlanılmış, lakin hüquq müdafiə təşkilatlarının səyləri nəticəsində ekstradisiya edilməmiş və azadlığa buraxılmışdır.[31]

**Əlövsət Əliyev** Avropa Birliyində siyasi sığınacaq statusuna malik olmasına baxmayaraq, Ukraynada saxlanılmışdır. O, Azərbaycan hakimiyyətinin İnterpol xətti ilə irəli sürdüyü tələblər əsasında Kiyevdə tutulmuş və müəyyən müddət həbsdə saxlanılmışdır. Ukrayna tərəfinin onun ekstradisiyası istiqamətində addımlar atdığı bildirilir. Lakin vəkillərin və beynəlxalq hüquq müdafiəçilərinin müdaxiləsi nəticəsində ekstradisiya baş tutmamış, o, sonradan Avropaya siyasi sığınacaq aldığı ölkəyə qayıda bilmişdir. Bu hal beynəlxalq

---

[28] Azxeber.com, *Gültəkin Hacıbəyli Azərbaycana deportasiya edildi,* https://azxeber.com/az/gultekin-hacibeyli-azerbaycana-deportasiya-edildi/sosial/
[29] Meydan.TV, *Talış fəal Türkiyədə saxlanılaraq Azərbaycana gətirilib*, https://www.meydan.tv/az/article/talis-f%C9%99al-turkiy%C9%99d%C9%99-saxlanilaraq-az%C9%99rbaycana-g%C9%99tirilib/
[30] Jam-news.net, *Keçmiş azərbaycanlı məmur Polşada "Putinin sifarişilə" saxlanılıb?* https://jam-news.net/az/kecmis-az%C9%99rbaycanli-m%C9%99mur-polsada-putinin-sifarisil%C9%99-saxlanilib/
[31] Bbc.com, *Azərbaycanlı fəal Daşqın Ağalarlı Polşada saxlanılıb*, https://www.bbc.com/azeri/azerbaijan-51012958

müdafiə statusuna malik şəxslərin belə transmilli repressiya riskindən tam sığortalanmadığını göstərir.[32]

**Zülfüqar Mikayılzadə** Rusiyada Azərbaycan tərəfinin tələbi ilə saxlanılmışdır. O, Azərbaycanda dini baxışlarına görə təzyiqlərə məruz qalan kəsimin nümayəndələrindən biri kimi qiymətləndirilir. Saxlanıldığı müddətdə onun Azərbaycana ekstradisiyası ehtimalı real olmuş, lakin vəkillərin müdaxiləsi nəticəsində bu proses dayandırılmış və o, müəyyən müddətdən sonra azadlığa buraxılmışdır.[33] Bu hadisə transmilli repressiyanın yalnız siyasi fəallarla məhdudlaşmadığını, eyni zamanda dini və ideoloji baxımdan fərqli mövqedə olan şəxsləri də əhatə etdiyini göstərir.

**Əfqan Sadıqov** Gürcüstanın paytaxtı Tbilisidə Azərbaycan tərəfinin tələbi ilə saxlanılmışdır. Onun azadlığa buraxılması da beynəlxalq hüquq müdafiə mexanizmlərinin işə düşməsi nəticəsində mümkün olmuşdur.[34] Lakin sonradan Tbilisi Şəhər Məhkəməsi Əfqan Sadıqovu Gürcüstanın İnzibati Xətalar Məcəlləsinin 173-cü maddəsində (sosial şəbəkədə polis əməkdaşını təhqir etmə) nəzərdə tutulmuş əməli törətdiyinə görə qanun pozucusu kimi tanıyıb və o, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana rəsmi səfəri ərəfəsində 5 aprel 2026-cı il tarixdə Azərbaycana deportasiya edilib.[35]

**Maqsud Mahmudov** Ukraynada tutularaq Azərbaycana gətirilib. Azərbaycan Respublikasının Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə məlumatında bildirilib ki, 2020-ci ilin yanvar ayının 10-dan Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə beynəlxalq axtarışa verilmiş Mahmudov Maqsud Soltan oğlu 2021-ci ilin iyul ayında Ukrayna Respublikası ərazisində saxlanılıb. M.Mahmudov ölkədə müxalifətin təşkil etdiyi mitinqlərdə özünü hakimiyyətin müdafiəçisi kimi təqdim edirdi. 2019-cu ildə isə o, Azərbaycanı tərk etdikdən sonra həmin əməllərinə görə üzr istəyib və bunu məcburiyyətdən etdiyini bildirib. M.Mahmudov beynəlxalq axtarışa verildikdən sonra açıqlama yayaraq bunu əvvəlki hərəkətindən peşman olması və üzr istəməsinə cavab tədbiri kimi dəyərləndirib.[36]

Bu faktlar göstərir ki, Azərbaycan hakimiyyəti transmilli repressiya siyasətini həyata keçirərkən yalnız ikitərəfli münasibətlərdən deyil, eyni zamanda beynəlxalq hüquq mexanizmlərindən də selektiv və məqsədli şəkildə istifadə etməyə çalışır.

---

[32] En.odfoundation.eu, *They've come for you. Misuse of extradition procedures, unlawful expulsions and kidnappings of victims of politically motivated prosecution,* https://en.odfoundation.eu/content/uploads/i/fmfiles/raporty/25-02-2019-odf-report-unlawful-extraditions-eng-1.pdf

[33] Globalinfo.az, *Hacı Zülfüqar Mikayılzadə Rusiyada həbs edildi*, https://globalinfo.az/haci-zulfuqar-mikayilzade-rusiyada-hebs-edildi/

[34] Pravda.az, *Əfqan Sadıqov Gürcüstanda saxlanıldı*, https://pravda.az/news/156869

[35] Qafqazinfo.az, *Əfqan Sadıqov Azərbaycana deportasiya olundu,* https://qafqazinfo.az/news/detail/efqan-sadiqov-azerbaycana-deportasiya-olundu-yenilenib-504265

[36] Amerikaninsesi.org, *Maqsud Mahmudov Ukraynada tutularaq Azərbaycana gətirilib*, https://www.amerikaninsesi.org/a/maqsud-mahmudov-ukraynada-tutularaq-az%C9%99rbaycana-g%C9%99tirilib/6234054.html

### 5.2.3. Fəxrəddin Abbasov işi

Fəxrəddin Abbasov (bəzi mənbələrdə Əboszoda kimi də qeyd edilir) talış milli fəal, alim və siyasi tənqidçi idi. O, 1993-cü ildə Azərbaycanın Talış bölgəsində siyasi fəaliyyət göstərmiş və bunun nəticəsində Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən müəyyən hüquqi prosedurlar çərçivəsində məsuliyyət məsələləri ilə üzləşmişdir. 1994-cü ildə o, Rusiyaya sığınmaqla ölkəni tərk etmişdir. Rusiyada o, uzun illər talış mədəniyyəti, dili və hüquqları ilə bağlı elmi-ictimai fəaliyyət göstərmiş, müxtəlif mətbuatda çıxışlar edərək milli azlığın hüquqlarını müdafiə etmişdir.

2014-cü ildə Rusiya miqrasiya qanunvericiliyi çərçivəsində müvəqqəti yaşayış icazəsi almış, daha sonra ölkədə uzun müddət yaşamaq və fəaliyyət göstərmək üçün müraciətlər etmişdir. 2018-ci ilin iyulunda isə Bakıda Sabail rayon məhkəməsinin qərarı ilə onun barəsində cinayət işi açılmış və həbs qərarı verilmişdi. Bu işlə bağlı ittihamlar arasında dövlət əleyhinə çağırışlar, milli nifrət və düşmənçilik yaratmaq və digər ağır maddələr qeyd olunurdu.

2018-ci ilin payızında Azərbaycan hakimiyyəti Abbasovun ekstradisiyası üçün Rusiya Federasiyasına rəsmi sorğu göndərmiş və o, bu onun Rusiyada həbs olunmasına səbəb olmuşdur. O, beş ay müddətində həbsdə ekstradisiya prosedurunu gözləmiş, lakin Lyubertsy məhkəməsi 2019-cu ilin əvvəllərində qərar çıxarmışdır ki, Abbasovun Rusiya miqrasiya qanunvericiliyinə uyğun yaşamaq icazəsi sona çatdığı üçün o, deportasiya edilməlidir. Bu qərar rəsmi ekstradisiya prosedurundan fərqli olaraq deportasiya mexanizmi ilə həyata keçirilmişdir.[37]

2019-cu il fevralın 28-də Fəxrəddin Abbasov Rusiya Federasiyasından deportasiya edilir və Bakı Beynəlxalq Aeroportunda Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən dərhal saxlanılır.[38] Onun tutulmasından sonra Azərbaycan hüquq-mühafizə orqanları Abbasovun əleyhinə ittihamlar irəli sürmüş, xüsusən dövlət əleyhinə çağırışlar və milli nifrət yaratmaq kimi maddələrə əsasən hüquqi tədbirlər tətbiq etmişdir.[39]

Abbasovun məhkəməsi 2020-ci ilin fevralında Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilib və o, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin dövlət əleyhinə yönələn çağırışlar və milli, etnik düşmənçilik yaradan hərəkətləri nəzərdə tutan maddələri ilə təqsirləndirilərək uzunmüddətli azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir.

Onun ölüm tarixi 2020-ci ilin noyabrında Qobustan həbsxanasında qeydə alınıb. Rəsmi məlumatlarda Abbasovun intihar etdiyi bildirilmişdir,[40] lakin hüquq müdafiə təşkilatları və yaxınları bu rəyə şübhə ilə yanaşmış, ölümün müəmmalı şəraitdə baş verdiyini və bu hallar barədə hər hansı qəti və şəffaf araşdırmanın aparılmadığını vurğulamışlar. İnsan hüquqları

[37] Regnum.ru, *Жизнь и смерть Фахраддина Абосзода*, https://regnum.ru/news/3162464
[38] Amnesty.org, *Amnesty требует расследования исчезновения Фахраддина Аббасова из подмосковного СИЗО*, https://amnesty.org.ru/r/2019-02-28-aboszoda/
[39] İkisahil.az, *Fəxrəddin Abbasov kimi Vətən xainlərinin həbsini siyasiləşdirmək əbəsdir,* https://ikisahil.az/post/fexreddin-abbasov-kimi-veten-xainlerinin-hebsini-siyasileshdirmek-ebesdir
[40] Bakupost.az, *Fəxrəddin Abbasov həbsxanada intihar etdi,* https://www.bakupost.az/fexreddin-abbasov-hebsxanada-intihar-etdi

müdafiə təşkilatları Abbasovun vəziyyətini “siyasi motivli məhkumluq və zorakı prosedur nəticəsində əldə edilmiş ölüm” kimi qiymətləndirmiş və məsələ ilə bağlı beynəlxalq narahatlıq ifadə etmişlər.

Fəxrəddin Abbasov işi transmilli repressiyanın nümunəsi olaraq qiymətləndirilməlidir. Ona qarşı qaldırılan ekstradisiya proseduru əvəzinə tətbiq edilən deportasiya mexanizmi onun siyasi fəaliyyətini hədəf almışdır. Deportasiya qərarının Rusiya miqrasiya qanunvericiliyinin tələbi iddiası ilə əsaslandırılması, ekstradisiya tələbini təmin etməməyə baxmayaraq onun təslim edilməsi, ardınca Azərbaycanda siyasi xarakterli ittihamlarla məhkəməyə cəlb olunması beynəlxalq hüquq normalarına, o cümlədən qeyri-qanuni deportasiya və zorla çıxarılmama prinsipinə zidd hesab edilir. Bu baxımdan Abbasovun işi hüquqi prosedurların siyasi alət kimi istifadə olunduğunu göstərən açıq nümunədir.

### 5.2.4. Fikrət Hüseynli işi

Fikrət Hüseynli azərbaycanlı jurnalist və mühacirətdə fəaliyyət göstərən media təmsilçisi idi. O, 2006-cı ildə Bakı şəhərində tanınmış müstəqil media orqanı “Azadlıq” qəzetində işlədiyi dövrdə qeyri-rəsmi qüvvələr tərəfindən zorakılığa məruz qalmışdır. Hüseynli Azərbaycandan getməyə məcbur olmuş və 2008-ci ildə Niderland Krallığında siyasi sığınacaq almışdır. Nəticədə o, Niderlandda yaşayış və vətəndaşlıq hüququ əldə etmiş, burada mühacirlərlə və diaspora ictimaiyyəti ilə əlaqəli media fəaliyyəti aparmışdır.

2017-ci ilin oktyabr ayında Hüseynli Ukraynanın Kiyev şəhərində Boryspil Beynəlxalq Hava Limanında Ukrayna hüquq-mühafizə orqanları tərəfindən saxlanılmışdır.[41] Bu saxlanma Azərbaycan hakimiyyətinin Interpol vasitəsilə verilmiş “qırmızı bülleten” göstəricisi əsasında həyata keçirilmişdi. Hüseynli barəsində Interpol axtarışının Azərbaycan tərəfindən Cinayət Məcəlləsinin “qanunsuz dövlət sərhədini keçmə” və “dələduzluq” kimi maddələrə əsaslandırıldığı bildirilirdi, lakin bu ittihamlar Hüseynlin Niderlandda yaşadığı və vətəndaşlıq hüququna malik olduğu halda irəli sürülmüşdü.[42]

Ukrayna məhkəməsi 2017-ci ilin oktyabrında Hüseynlin saxlanılmasına dair qərar qəbul etmiş, lakin bu qərar humanitar və hüquqi baxımdan ciddi narahatlıqlara səbəb olmuşdu. Beynəlxalq hüquq müdafiə təşkilatları, o cümlədən Freedom House və “Sərhədsiz reportyorlar” Hüseynlin saxlanmasını Azərbaycan hakimiyyətinin Interpol sistemindən siyasi motivlə istifadə etməsi kimi qiymətləndirmişdir. Xüsusilə Freedom House Ukraynanı “Hüseynlinin azad edilməsinə” çağıraraq, qeyd etmişdir ki, “Azərbaycan hökumətinin Interpola təqdim etdiyi axtarış tələbində göstərilən ittihamlar jurnalistin həqiqi cinayət məsuliyyətinə deyil, ona qarşı siyasi təzyiq vasitəsi olmasına daha çox bənzəyir”.[43]

---

[41] Freedom House, *Ukraine Should Release Journalist Detained Due to Azerbaijan's Misuse of Interpol,* https://freedomhouse.org/article/ukraine-should-release-journalist-detained-due-azerbaijans-misuse-interpol
[42] Hromadske International, *Azerbaijani Opposition Journalist Arrested in Kyiv on Interpol Warrant,* https://hromadske.ua/en/posts/azerbaijani-opposition-journalist-arrested-in-kyiv-on-interpol-warrant
[43] Freedom House, Ukraine Should Release Journalist Detained Due to Azerbaijan's Misuse of Interpol, https://freedomhouse.org/article/ukraine-should-release-journalist-detained-due-azerbaijans-misuse-interpol
Reporters Without Borders, Ukraine arrests second journalist on Interpol red notice, 18 October 2017

Belə hallarda beynəlxalq hüquq mütəxəssisləri və media azadlığı təşkilatları Interpol “qırmızı bülleten” mexanizminin sui-istifadəsinin bu strukturu legitim funksiyasından çıxardığını vurğulamışdır.

Fikrət Hüseynli işi transmilli repressiyanın Interpol mexanizmləri vasitəsilə həyata keçirilməsi nümunəsi kimi qiymətləndirilə bilər. Interpol sisteminin əsas funksiyası beynəlxalq hüquq və polis əməkdaşlığını təmin etməkdir. Hüquqi prosedurlar olmadan və siyasi motivlə verilmiş “Red Notice” vasitəsilə xaricdə yaşayan dissidentlərin həbs olunması bu mexanizmin siyasi təqib alətinə çevrilməsi kimi qiymətləndirilir. Bu isə beynəlxalq hüquqda nəzərdə tutulmuş hüquqi zəmanətlərin, xüsusən siyasi motivli ekstradisiyanın qadağan olunması prinsipinin pozulması kimi qiymətləndirilə bilər.

### 5.3. Hüquqi təqib və qiyabi hökmlər

Transmilli repressiyanın Azərbaycan kontekstində ən geniş tətbiq olunan formalarından biri xaricdə yaşayan tənqidçilərə qarşı qiyabi cinayət təqibi və məhkəmə qərarları mexanizmidir. Bu yanaşma dövlətə imkan verir ki, fiziki olaraq ölkə hüdudlarından kənarda olan şəxsləri formal hüquqi prosedurlar vasitəsilə cinayət məsuliyyətinə cəlb etsin, onların beynəlxalq hüquqi statusunu zəiflətsin və fəaliyyətlərini məhdudlaşdırsın.

Son illərdə Azərbaycan məhkəmələri və hüquq-mühafizə orqanları tərəfindən xaricdə yaşayan çoxsaylı jurnalistlər, siyasi fəallar və ictimai xadimlər barəsində qiyabi istintaq və məhkəmə qərarları çıxarılmışdır. Bu şəxslər sırasında xüsusilə aşağıdakılar qeyd olunmalıdır: jurnalistlər Sevinc Osmanqızı, Qənimət Zahid və Beydulla Manafov; siyasi analitik Ərəstun Oruclu, siyasətçi filosof Abid Qafarov, akademik araşdırmaçı Altay Göyüşov; media rəhbərləri Qurban Məmmədov və Tural Sadıqlı, bloqerlər və internet fəalları Süleyman Süleymanlı, Manaf Cəlilzadə, Murad Quliyev, Orxan Ağayev, Məhəmməd Mirzəli və Elşad Məmmədov, eləcə də digər jurnalistlər, bloqerlər və ictimai fəallar.[44]

Bu siyahı tam deyil və açıq mənbələrdə qeyd olunan faktlar göstərir ki, qiyabi təqib praktikasının miqyası daha genişdir. Qeyd olunan şəxslərin əksəriyyəti Azərbaycan hakimiyyətini tənqid edən media fəaliyyəti, siyasi çıxışlar və ya ictimai mövqelərinə görə hədəfə alınmışdır.

Bu cür qiyabi məhkəmə qərarları yalnız hüquqi prosedur kimi təqdim edilsə də, mahiyyət etibarilə siyasi təqib aləti funksiyasını yerinə yetirir və transmilli repressiyanın institusional komponentinə çevrilmişdir. Daha sonra Hesabatın bu hissəsində yuxarıda adı çəkilən şəxslərin bir qismi ilə bağlı qiyabi təqib nümunələri detallı şəkildə təqdim olunur, hər bir işin hüquqi və beynəlxalq kontekstdə təhlili aparılır.

---

https://rsf.org/en/ukraine-arrests-second-journalist-interpol-red-notice
[44] Meydan.tv, *Xaricdə yaşayan blogerlərə qiyabi hökm oxunub,* https://www.meydan.tv/az/article/xaricd%c9%99-yasayan-blogerl%c9%99r%c9%99-qiyabi-hokm-oxunub/

### 5.3.1. Abid Qafarov işi

Abid Qafarov siyasətçi, internet televiziya aparıcısı və sosial-siyasi mövzular üzrə çıxışları ilə tanınan ictimai xadimdir. O, xüsusilə "Kim TV" internet televiziyası çərçivəsində fəaliyyəti və ictimai rezonans doğuran məsələlərə, o cümlədən hüquq pozuntuları və müharibə ilə bağlı hadisələrə dair çıxışları ilə tanınmışdır.[45] Qafarovun fəaliyyəti əsasən Azərbaycan cəmiyyətində rezonans doğuran məsələlərin, xüsusilə "Tərtər işi" kimi tanınan hadisələrin ictimailəşdirilməsi və bu kontekstdə zərərçəkmiş şəxslərin müdafiəsinə yönəlmişdir. O, açıq şəkildə dövlət qurumlarını və hüquq-mühafizə sistemini tənqid edən çıxışlar etmişdir.[46]

2022-ci ildə Abid Qafarov barəsində cinayət işi açılmış və o, məhkəmə qərarı ilə 1 il müddətinə azadlıqdan məhrum edilmişdir. Rəsmi ittihamlar böhtan və təhqir maddələri ilə əsaslandırılmışdır, lakin Qafarov özü bu ittihamları rədd etmiş və fəaliyyətinin siyasi motivli olduğunu bildirmişdir.[47] Həbsdən sonra Abid Qafarov ölkəni tərk etmiş və xaricdə fəaliyyətini davam etdirir. 2025-ci ildə Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən onun barəsində yeni cinayət işi başlanmış, o, dövlət əleyhinə çağırışlar və kütləvi iğtişaşlara təşviq kimi ağır maddələrlə ittiham edilmişdir. Onun barəsində qiyabi həbs qətimkan tədbiri seçilmiş və beynəlxalq axtarış elan edilmişdir. İttihamların əsaslandırılması kimi onun internet üzərindən yaydığı çıxışlar və videomateriallar göstərilmişdir ki, bu da siyasi ifadə azadlığının kriminalizasiya edilməsi məsələsini gündəmə gətirir.[48]

Abid Qafarovun işi göstərir ki, ictimai-siyasi fəaliyyət və ifadə azadlığı çərçivəsində edilən çıxışlar cinayət təqibinə səbəb ola bilir. Onun əvvəlcə daxildə həbs olunması, daha sonra isə xaricdə olduğu dövrdə qiyabi təqibə məruz qalması transmilli repressiyanın mərhələli xarakterini nümayiş etdirir. Bu halda qiyabi cinayət təqibi yalnız hüquqi mexanizm deyil, həm də siyasi nəzarət və təzyiq aləti kimi çıxış edir.[49]

### 5.3.2. Altay Göyüşov işi

Altay Göyüşov tanınmış tarixçi-alim, akademik tədqiqatçı və ictimai-intellektual mühitdə nüfuz sahibi olan şəxsdir. O, uzun illər Azərbaycan tarixinin müxtəlif dövrləri, milli kimlik, din və cəmiyyət münasibətləri kimi mövzular üzrə elmi fəaliyyət göstərmiş, bir sıra beynəlxalq akademik layihələrdə iştirak etmiş və xaricdə elmi mühitdə fəaliyyətini davam etdirmişdir.

Göyüşov xüsusilə ictimai çıxışları, analitik yazıları və sosial şəbəkələrdə yayımlanan mövqeləri ilə Azərbaycan hakimiyyətinin siyasətini tənqid edən intellektual fiqurlardan biri

---

[45] Cpj.org, *Abid Gafarov,* https://cpj.org/data/people/abid-gafarov/
[46] Youtube.com, *KİM.TV*, https://www.youtube.com/@kimtv1792
[47] Irfs.org, *Abid Gafarov in prison hospital survived clinical death – spouse*, https://www.irfs.org/news-feed/abid-gafarov-in-prison-hospital-survived-clinical-death-spouse/
[48] Fom.coe.int, *Exiled Journalists Sevinj Osmanqizi and Abid Gafarov Arrested in Absentia?* https://fom.coe.int/en/alerte/detail/107643314
[49] Tribunat.info, *Mass persecution of immigrant critics: Anti-state appeals or punishment for freedom of expression?* https://tribunat.info/en/analysis/mass-persecution-of-immigrant-critics-anti-state-appeals-or-punishment-for-freedom-of-expression

kimi tanınır. Onun çıxışları əsasən dövlət idarəçiliyi, hüquq sistemi, ictimai azadlıqlar və demokratik institutların vəziyyəti ilə bağlı olmuşdur. Bu baxımdan o, yalnız akademik tədqiqatçı deyil, həm də ictimai fikir formalaşdıran xadim kimi çıxış etmişdir.

A.Göyüşov 18 fevral 2026-cı il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən prosesdə qiyabi hökmlə AR Cinayət Məcəlləsinin 281.2-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar, təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə 6 il müddətinə azadlıqdan məhrum edilib. Açıq mənbələr göstərir ki, bu ittihamlar əsasən onun ictimai-siyasi xarakterli çıxışları və tənqidi mövqeyi ilə əlaqələndirilir.[50]

Bu işin diqqət çəkən xüsusiyyətlərindən biri ondan ibarətdir ki, Altay Göyüşov zorakılıqla əlaqəli hər hansı fəaliyyətlə deyil, yalnız elmi və ictimai-intellektual fəaliyyəti ilə tanınan şəxsdir. Buna baxmayaraq, onun barəsində irəli sürülən ittihamın məhz ifadə və fikir azadlığı çərçivəsində olan fəaliyyətlərlə bağlı olması bu təqibin siyasi motivli olması ehtimalını gücləndirir.

Bundan əlavə, Göyüşovun xaricdə yaşaması və fəaliyyət göstərməsi fonunda onun barəsində qiyabi cinayət təqibinin aparılması transmilli repressiya kontekstində xüsusi əhəmiyyət kəsb edir. Bu, dövlətin yalnız fiziki nəzarət imkanları ilə kifayətlənmədiyini, eyni zamanda hüquqi mexanizmlər vasitəsilə sərhədlərdən kənarda olan tənqidçilərə təsir etməyə çalışdığını göstərir. Altay Göyüşovun işi akademik azadlıq və ifadə azadlığı prinsiplərinin pozulması kontekstində qiymətləndirilməlidir. Qiyabi həbs qərarı və cinayət təqibi onun elmi və ictimai fəaliyyətinə görə hədəfə alındığını göstərir. Bu hal, qiyabi məhkəmə mexanizminin transmilli repressiya aləti kimi istifadə olunmasının nümunəsi olmaqla yanaşı, Avropa insan hüquqları sisteminin əsas prinsipləri ilə, xüsusilə ifadə azadlığı və ədalətli məhkəmə hüququ ilə ziddiyyət təşkil edir.

### 5.3.3. Beydulla Manafov işi

Beydulla Manafov jurnalist və media fəaliyyəti ilə tanınan şəxsdir. O, xüsusilə müstəqil media platformalarında çıxışları və Azərbaycan hakimiyyətinə yönəlmiş tənqidi mövqeyi ilə seçilmişdir. Manafovun fəaliyyəti əsasən ictimai-siyasi proseslərin şərhi, korrupsiya iddiaları və dövlət idarəçiliyindəki problemlərin işıqlandırılması ilə bağlı olmuşdur.

Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən Beydulla Manafov barəsində cinayət işi başlanmış və o, müxtəlif maddələr üzrə ittiham olunmuşdur. 14 yanvar 2026-cı il tarixdə o, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Nigar İmanovanın sədrliyi ilə keçirilən prosesdə qiyabi hökmlə 8 il müddətinə azadlıqdan məhrum olunub. Açıq mənbələrdə bu ittihamların əsasən onun ictimai-siyasi çıxışları və tənqidi fəaliyyəti ilə əlaqələndirildiyi göstərilir. Onun

[50] Meydan.tv, *Altay Göyüşov 6 il müddətinə azadlıqdan məhrum edilib,* https://www.meydan.tv/az/article/altay-goyusov-6-il-mudd%c9%99tin%c9%99-azadliqdan-m%c9%99hrum-edilib/

barəsində qiyabi həbs qətimkan tədbiri seçilmiş və məhkəmə prosesi onun iştirakı olmadan aparılmışdır.[51]

Beydulla Manafovun işi jurnalist fəaliyyətinə görə cinayət təqibinin aparılması kontekstində qiymətləndirilməlidir. Qiyabi həbs qərarı və cinayət ittihamları onun ifadə azadlığı hüququnun məhdudlaşdırılması ilə nəticələnmişdir. Bu hal, qiyabi məhkəmə mexanizminin transmilli repressiya vasitəsi kimi istifadə olunduğunu və media azadlığının sistemli şəkildə təzyiq altında saxlanıldığını göstərir.

### 5.3.4. Elşad Məmmədov işi

Elşad Məmmədov sosial media fəalı və internet üzərindən ictimai-siyasi mövzulara münasibət bildirən bloqer kimi tanınır. O, müxtəlif platformalarda Azərbaycan cəmiyyətində baş verən proseslər, sosial problemlər və dövlət idarəçiliyi ilə bağlı tənqidi çıxışları ilə seçilmişdir.

Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən onun barəsində cinayət işi başlanmış və o, bir sıra maddələr üzrə ittiham olunmuşdur. Onun barəsində qiyabi həbs qətimkan tədbiri seçilmiş və məhkəmə prosesi onun iştirakı olmadan aparılmışdır. Bakı Ağır Cinayətlər Məhkəməsindəki prosesdə qiyabi hökmlə Elşad Məmmədov 9 il azadlıqdan məhrum edilib. İttihamların əsasını onun internet üzərindən yaydığı çıxışlar təşkil etmişdir. Bu iş, digər oxşar hallarla birlikdə, xaricdə yaşayan və ictimai-siyasi mövzularda çıxış edən şəxslərə qarşı qiyabi hüquqi təqib praktikasının tətbiq olunduğunu göstərir.[52]

Elşad Məmmədovun işi göstərir ki, sosial media fəaliyyəti və tənqidi çıxışlar cinayət təqibinə səbəb ola bilir. Qiyabi həbs qərarı onun mühacirətdə olduğu şəraitdə hüquqi təzyiq vasitəsi kimi çıxış edir və bu, transmilli repressiyanın hüquqi mexanizmlər üzərindən həyata keçirildiyini təsdiqləyir.

### 5.3.5. Ərəstun Oruclu işi

Ərəstun Oruclu siyasi analitik, politoloq və ictimai-siyasi proseslərin şərhi ilə tanınan ekspertlərdən biridir. O, 1996-2011 illərdə Almaniyanın Fridrix Naumann Fondunun Azərbaycan üzrə nümayəndəsi, 2004-cü ildən ölkədə ilk siyasi araşdırma mərkəzinin yaradıcılarından biri və onun rəhbəri kimi fəaliyyət göstərmişdir. Oruclu ölkə daxilində və xaricində analitik fəaliyyətlə məşğul olmuş, xüsusilə təhlükəsizlik, geosiyasət və dövlət idarəçiliyi məsələləri üzrə çıxışları ilə tanınmışdır. O, eyni zamanda müxtəlif media platformalarında ekspert qismində çıxış etmiş və ictimai rəydə təsir imkanına malik analitik fiqur kimi formalaşmışdır. Oruclu Azərbaycanda siyasi mühitin məhdudlaşdırılması, ifadə azadlığına təzyiqlər və müstəqil ekspert fəaliyyətinə qarşı qeyri-formal maneələr səbəbilə

---

[51] Meydan.tv, *Xaricdə yaşayan Abid Qafarov, Sevinc Osmanqızı və Beydulla Manafova hökm oxunub*, https://www.meydan.tv/az/article/xaricd%c9%99-yasayan-abid-qafarov-sevinc-osmanqizi-v%c9%99-beydulla-manafova-hokm-oxunub/

[52] Lent.az, *Xaricdəki blogerlərə hökm oxundu,* https://lent.az/xeber/hadise/xaricdeki-blogerlere-hokm-oxundu-40655627

ölkəni tərk etmiş və fəaliyyətini xaricdə davam etdirmişdir. Xaricdə yaşadığı dövrdə o, Azərbaycan hakimiyyətinin daxili və xarici siyasətini tənqid edən analitik yazılar və çıxışlarla tanınmışdır.

Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən Ərəstun Oruclunun barəsində cinayət işi başlanmış və o, bir sıra ağır maddələr üzrə ittiham olunmuşdur. Açıq mənbələr göstərir ki, bu ittihamlar əsasən onun ictimai-siyasi xarakterli çıxışları və analitik mövqeyi ilə əlaqələndirilir. Onun barəsində qiyabi həbs qətimkan tədbiri seçilmiş və məhkəmə prosesi onun iştirakı olmadan aparılmış, o, 19 fevral 2026-cı il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Babək Pənahovun sədrliyi ilə keçirilən prosesdə qiyabi hökmlə AR Cinayət Məcəlləsinin 220.2-ci (hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə) və 281.2-ci (dövlət əleyhinə yönələn açıq çağırışlar) maddələri ilə təqsirli bilinərək, 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. [53]

Bu işin mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, Ərəstun Oruclu zorakılıq və ya cinayət xarakterli fəaliyyətlə deyil, yalnız analitik və ekspert fəaliyyəti ilə tanınır. Buna baxmayaraq, onun barəsində cinayət təqibinin aparılması siyasi analitika və ekspert rəyinin kriminalizasiya olunması məsələsini gündəmə gətirir. Eyni zamanda, onun işi daha geniş kontekstdə, xaricdə yaşayan analitiklər, jurnalistlər və ictimai fəallara qarşı yönəlmiş qiyabi hüquqi təqib siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Bu, fərdi haldan daha çox sistemli yanaşmanın mövcudluğunu göstərir.

Ərəstun Oruclunun işi ifadə azadlığı və analitik fəaliyyət azadlığının məhdudlaşdırılması kontekstində qiymətləndirilməlidir. Qiyabi həbs qərarı və cinayət təqibi onun ictimai-siyasi mövqeyinə görə hədəfə alındığını göstərir. Bu hal transmilli repressiyanın hüquqi mexanizmlər vasitəsilə həyata keçirildiyini təsdiqləyir və Avropa insan hüquqları standartları ilə, xüsusilə ifadə azadlığı və ədalətli məhkəmə hüququ ilə ziddiyyət təşkil edir.

### 5.3.6. Qənimət Zahid işi

Qənimət Zahid jurnalist, media rəhbəri və “Azərbaycan saatı” internet televiziyasının rəhbəridir. O, 1990-cı illərdən jurnalist fəaliyyətinə başlamış, daha sonra müstəqil media layihələrində, o cümlədən “Azərbaycan saatı” platformasında siyasi və ictimai məsələlər üzrə şərh və analizlər verərək tanınmışdır. Bu platforma vasitəsilə Zahid Azərbaycan daxili siyasəti, insan hüquqları, korrupsiya və sosial problemlərlə bağlı tənqidi çıxışlarını davam etdirmişdir.

2011-ci ildən başlayaraq Qənimət Zahid Azərbaycanda media azadlığına qarşı təzyiqlər gücləndikcə hədəfə çevrilmişdir. 2011-ci ildə ona qarşı fiziki təzyiqlər və təhlükəsizlik təhdidləri artmış, nəticədə o, Fransada siyasi sığınacaq almış və fəaliyyətini xaricdə davam etdirmişdir. Zahid Fransada yaşadığı dövrdə “Azərbaycan saatı” vasitəsilə müntəzəm olaraq

[53] Azadlıq Radiosu, *Ərəstun Orucluya 8 il həbs cəzası elan edilib*, https://www.azadliq.org/a/sevinc-osmanqizi-bas-prokurorluq/33591196.html

siyasi şərhlər və tənqidi proqramlar yayımlamışdır, bu da onun hakimiyyətlə münasibətlərini daha da gərginləşdirmişdir.

2025-ci ilin sentyabr ayında Baş Prokurorluğun rəsmi açıqlaması ilə Q.Zahid barəsində qiyabi cinayət icraatı başlanmış, "Azərbaycan saatı" internet televiziyasında yayımlanan proqramlar və videomateriallar ittiham aktına daxil edilmişdir. Zahid xaricdə olduğundan məhkəmə prosesi onun iştirakı olmadan aparılmışdır. 2025-ci il dekabrın 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Fəxri Məmmədovun sədrliyi ilə keçirilən prosesdə qiyabi hökmlə Qənimət Zahidi AR Cinayət Məcəlləsinin 281.2-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar, təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə təqsirli bilinərək, 7 il müddətinə azadlıqdan məhrum edilib.[54] Məhkəmə materiallarında iddia edilir ki, onun çıxışları hakimiyyətə qarşı zorakı etirazlara çağırışları təbliğ edir, lakin bu iddialar Zahid və hüquq müdafiəçiləri tərəfindən jurnalist fəaliyyəti ilə əlaqələndirilərək, rədd edilir.

Qənimət Zahid işi göstərir ki, jurnalist fəaliyyətinə görə qiyabi məhkəmə qərarının tətbiqi, xaricdə yaşayaraq peşə fəaliyyəti ilə məşğul olan şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün istifadə olunub. Bu, transmilli repressiyanın hüquqi mexanizmlər vasitəsilə ifadə azadlığının məhdudlaşdırılması və müstəqil media tərəfindən səsləndirilən tənqidi fikirlərin kriminalizasiya olunmasının nümunəsidir.

### 5.3.7. Qurban Məmmədov işi

Qurban Məmmədov ölkədə tanınmış hüquqşünasdır. 1987-ci ildən vəkillik, hüquq nümayəndəliyi və hüquq müdafiəçisi kimi fəaliyyət göstərir. 1989-2014-cü illər arasında üç dəfə siyasi fəaliyyətinə görə həbsdə olub. 2011-ci ildə "AzeriFreedom" internet televiziyasını təsis edib, ona rəhbərlik edib və həmin kanal vasitəsilə vətəndaşların hüquqi maarifləndirilməsi ilə yanaşı, Azərbaycanda korrupsiya, insan hüquqlarının pozulmasını və hakimiyyətin qeyri-şəffaf idarəçilik metodlarını tənqid edib.

Q.Məmmədov 2018-ci ildə ölkəni tərk edərək Birləşmiş Krallığa getdi və orada siyasi sığınacaq aldı. Həmin dövrdən başlayaraq, AzerFreedom internet televiziyasındakı fəaliyyəti ilə bağlı Q.Məmmədova qarşı Azərbaycan hökuməti transmilli təqiblərə əl atdı.

2018-ci ilin sonlarında Azərbaycan Hökuməti tərəfindən göndərilən naməlum şəxslərin Q.Məmmədovun oğlunu və onun məktəbli uşaqlarını izlədiyini təsbit edən İngilətərə polisi, uzunmüddətli və ardıcıl tədbirlərdən sonra onların həyatına yaradılan real təhlükənin qarşısını aldı.

Azərbaycan Hökuməti 5 sentyabr 2020-ci il tarixdə, hadisə yerindən canlı yayın edən jurnalistlərin gözü qarşısında, polis əməkdaşlarının və dövlət məmurlarının iştirakı ilə Qurban

[54] Azadlıq Radiosu, *Qənimət Zahidə qiyabi hökm oxunub*, https://www.azadliq.org/a/sevinc-osmanqizi-bas-prokurorluq/33591196.html

Məmmədovun Bakı şəhərində özünə və ailə üzvlərinə məxsus mənzilləri vəhşicəsinə dağıdıldı, həmin vaxt mənzildə yaşayan azyaşlı qız nəvələrini zorla küçəyə atıldı.[55]

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsinin 07.06.2019-cu il tarixli qərarı ilə Q.Məmmədov, AR Cinayət Məcəlləsinin 220.2-ci maddəsi ilə, təqsirləndirilən şəxs qismində cəlb olunmaqla, barəsində axtarış elan edildi və Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 14.06.2019-cu il tarixli qərarı ilə barəsində 3 ay müddətinə qiyabi həbs qətimkan tədbiri seçildi.[56] 08 sentyabr 2020-ci ildə Azərbaycan Respublikası Baş prokurorluğu tərəfindən Q.Məmmədov haqqında ikinci cinayət işi qaldırıldı. 20 dekabr 2023-cü il tarixdə ona AR Cinayət Məcəlləsinin 214-2, 220.2 və 284.2-ci maddələri ilə yeni məzmunda üç ittihamın elan edilməsi haqqında qərar qəbul edildi.[57]

2021-ci ildə Q.Məmmədovun rəhbərliyi ilə beynəlxalq sənədlərdə "Tərtər işi" kimi tanınan, insanlığa qarşı törədilmiş dəhşətli hərbi cinayətlər ifşa edildi. O dövrdə AzerFreedom TV-nin apardığı ictimai araşdırma ilə, minlərlə əsgər və zabitin işgəncə görməsində və öldürülməsində onlarla general və yüksək rütbəli zabitin, dövlət məmurlarının iştirakı sübut edildi. Nəticədə dövlətə xəyanətdə əsassız yerə ittiham edilən 44 nəfərə bəraət verildi və həmin cinayəti törədənlərdən, biri general olmaqla, bir neçə zabit həbs edildi.

13 mart 2025-ci il tarixdə Q. Məmmədova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 34.2, 220.2, 214-2, 12.1, 34.2, 281.2, 284.2-ci maddələri ilə yeni, dördüncü ittiham elan edilməsi haqqında qərar qəbul edildi və bu işi əvvəlki işlərlə birləşdirib onun haqqında qiyabi cinayət təqibi başladıldı.[58] Bu ibtidai istintaqın gedişi zamanı, Q.Məmmədovun internet üzərindən dəfələrlə müraciət etməsinə baxmayaraq, onun müdafiə hüquqları təmin edilmədi, iş materialları ilə tanış olmaq üçün ona şərait yaradılmadı, verdiyi vəsatətlər təmin edilmədi. 26 dekabr 2025ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Q.Məmmədov 14 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edildi.[59] Cinayət işinin materialları ilə Q.Məmmədovun tanış ola bilməməsi üçün, Azərbaycan hökuməti tərəfindən yaradılan "Elektron-Mehkeme" İnformasiya Sistemində onun "şəxsi kabinet"inə həmin materiallar inteqrasiya edilmədi. Q.Məmmədovun Bakı Ağır Cinayətlər Məhkəməsinin və Bakı Apelyasiya Məhkəməsinin E-mail ünvanlarına yazdığı şikayətlərə cavab verilmədi. Hüquq müdafiəçiləri bu qərarın siyasi motivli olduğunu, əsaslı və şəffaf məhkəmə prosedurlarına əsaslanmadığını vurğulayırlar.

Qurban Məmmədov işində transmilli repressiyanın aşağıdakı formalarına təsadüf edilib: hüquqi təqib və qiyabi məhkəmə qərarları; dolayı təzyiq və yaxın ətrafın hədəflənməsi; mülkiyyətin dağıdılması.  Xaricdə yaşayan jurnalist və media rəhbərinin təqibi və qiyabi həbs

---

[55] Hurriyyet TV, *Qurban Məmmədovun evi dağıdılır və yağmalanır*, https://www.youtube.com/watch?v=WpmfHU5Jd3w
[56] Apa.az, *Qurban Məmmədov Baş Prokurorluğa çağırılıb,* https://apa.az/hadise/qurban-memmedov-bas-prokurorluga-cagirilib-892618
[57] Publika.az, *Qurban Məmmədov da Baş Prokurorluğa çağırıldı,* https://publika.az/news/nida_xeber/561038.html
[58] Apa.az, *Qurban Məmmədov Baş Prokurorluğa çağırılıb*, https://apa.az/hadise/qurban-memmedov-bas-prokurorluga-cagirilib-892618
[59] Axar.az, *Qurban Məmmədov 14 il azadlıqdan məhrum edildi,* https://axar.az/news/toplum/1046589.html

yolu ilə hədəfə alınması təhlükəsizlik hüququ, ifadə azadlığı və ədalətli məhkəmə hüququ prinsiplərinə ciddi zərbədir.

### 5.3.8. Məhəmməd Mirzəli işi

Məhəmməd Mirzəli azərbaycanlı bloger və ictimai fəaldır. O, xaricdə yaşamaqla yanaşı, Azərbaycanda insan hüquqları, korrupsiya və dövlət idarəçiliyi mövzularında tənqidi videolar hazırlamışdır. Onun fəaliyyəti xüsusilə hakimiyyətin şəffaf olmayan idarəçilik və hüquqi prosedurlarına qarşı yönəlmişdir.

2025-ci ilin sentyabr ayında Binəqədi rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə keçirilən prosesdə Məhəmməd Mirzəli haqqında qiyabi hökm oxunub. Hökmə əsasən, Məhəmməd Mirzəli qiyabi olaraq kütləvi ixtişaşa çağırış və dövlət əleyhinə açıq çağırışlar ittihamı ilə təqsirli bilinib, barəsində AR Cinayət Məcəlləsinin 220.2-ci və 281.1-ci maddələri ilə 6 il 6 ay müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilib.[60] Məhəmməd Mirzəliyə qarşı çıxarılan qiyabi hökm və digər hüquqi təzyiqlər xaricdə yaşayan jurnalistlərin hədəfə alınmasının sistemli praktikası kimi Avropa İnsan Hüquqları Konvensiyası və beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil edir.

Mirzəli işi göstərir ki, qiyabi məhkəmə qərarları vasitəsilə xaricdə yaşayan jurnalistlərin fəaliyyəti məhdudlaşdırılır. Bu, ifadə azadlığına və ədalətli məhkəmə hüququna yönəlmiş transmilli repressiyanın açıq nümunəsidir.

### 5.3.9. Orxan Ağayev (və digərləri) işi

Orxan Ağayev Almaniyada yaşayan siyasi blogerdir və sosial media platformalarında yaydığı çıxışlarla Azərbaycan hakimiyyətini tənqid edən şəxslərdən biri kimi tanınır. Onun fəaliyyəti əsasən ictimai-siyasi proseslərin şərhi, korrupsiya və idarəetmə problemlərinin tənqidi ilə bağlıdır. Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən onun barəsində qiyabi cinayət icraatı başlanmışdır. Orxan Ağayev işi xaricdə yaşayan və siyasi fəaliyyətlə məşğul olan şəxslərə qarşı tətbiq edilən qiyabi istintaq və məhkəmə praktikasının davamı kimi qiymətləndirilir. Bu praktika ifadə və məlumat azadlığına yönəlmiş transmilli repressiya mexanizmi kimi çıxış edir.

2025-ci ilin dekabrında Bakı Ağır Cinayətlər Məhkəməsi bir qrup xaricdə yaşayan bloqerə qiyabi hökm oxumuşdur. Bu hökmə əsasən Orxan Ağayev də daxil olmaqla ***Süleyman Süleymanlı, Orduxan Teymurxan və digərləri*** 9 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir.[61] Cinayət ittihamları arasında dələduzluq, terrorçuluğa çağırış, hakimiyyət nümayəndələrinə tabe olmama, kütləvi iğtişaşlara çağırış və rəsmi sənədlərin saxtalaşdırılması kimi ağır maddələr yer almışdır. Ağayev özü və onun tərəfdarları ittihamları

---

[60] News.milli.az, *Məhəmməd Mirzəli qiyabi olaraq 6 il 6 ay azadlıqdan məhrum edildi,* https://news.milli.az/incedent/1293897.html

[61] Lent.az, *Xaricdəki blogerlərə hökm oxundu,* https://lent.az/xeber/hadise/xaricdeki-blogerlere-hokm-oxundu-40655627

rədd edir və bu cəzanı siyasi motivlə, onun ifadə azadlığını məhdudlaşdırmaq məqsədilə verilmiş qərar kimi qiymətləndirirlər.

Orxan Ağayev işi transmilli repressiyanın qiyabi hüquqi komponenti kimi qiymətləndirilməlidir. O, zorakılıq və cinayət xarakterli fəaliyyətdən fərqli olaraq yalnız ifadə və tənqid fəaliyyətinə görə ittiham olunub və bu ittihamların qiyabi məhkəmə qərarı vasitəsilə həyata keçirilməsi, ifadə azadlığı və ədalətli məhkəmə hüququ kimi fundamental prinsiplərin pozulması riski yaradır.

### 5.3.10. Sevinc Osmanqızı işi

Sevinc Osmanqızı xaricdə yaşayan jurnalist və Osmanqızı internet televiziyasının rəhbəridir. Azərbaycanda media və ifadə azadlığı sahəsində fəaliyyəti ilə tanınmışdır. Onun fəaliyyəti xüsusilə hakimiyyətin tənqidi mövqelərinə qarşı yönəlmişdir.

Binəqədi Rayon Məhkəməsi onun barəsində qiyabi həbs qətimkan tədbiri seçmiş, daha sonra 14 yanvar 2026-cı il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Nigar İmanovanın sədrliyi ilə keçirilən prosesdə qiyabi hökmlə Osmanqızı 8 il müddətinə azadlıqdan məhrum olunub.[62] Osmanqızı AR Cinayət Məcəlləsinin 220.2 və 281.2 maddələri ilə ittiham edilmişdir, bu da əslində siyasi motivli repressiyanın hüquqi mexanizm kimi istifadəsini göstərir.[63]

Sevinc Osmanqızı işi göstərir ki, xaricdə yaşayan jurnalistlər qiyabi məhkəmə qərarları vasitəsilə hədəfə alınır. Bu, ifadə və məlumat azadlığına yönəlmiş transmilli repressiyanın açıq nümunəsidir.

### 5.3.11. Tural Sadıqlı işi

Tural Sadıqlı azərbaycanlı jurnalist, bloqer və “Azad Söz” internet televiziyasının rəhbəri kimi tanınan ictimai fəaldır. O, bu platforma vasitəsilə Azərbaycanda siyasi, sosial və idarəetmə məsələlərinə dair müstəqil jurnalistika aparmış, xüsusən hakimiyyətin fəaliyyəti, korrupsiya halları, hüquq-mühafizə orqanlarının sui-istifadələri və vətəndaş hüquqları barədə sərt tənqidi çıxışlar yayımlamışdır. “Azad Söz” kanalı Sadıqlının ictimai fəallığının mərkəzi platforması olaraq geniş auditoriya qazanmışdır.

Sadıqlı, xüsusən 2020-ci illərin ortalarından başlayaraq sosial media və “Azad Söz” vasitəsilə yayımladığı videolarla hakimiyyətin ictimai rəyi təzyiq altına alma siyasətini tənqid etmiş, demokratiya və söz azadlığı məsələlərini gündəmə gətirmişdir. Bu çıxışlar media müstəqilliyi və ifadə azadlığı ilə bağlı ictimai müzakirələrə təkan vermişdir. Bu çıxışlar əsasında Azərbaycan məhkəməsi onun barəsində qiyabi həbs qətimkan tədbiri tətbiq etmişdir. Daha sonra qiyabi məhkəmə prosesi nəticəsində Sadıqlı “Azad Söz” üzərindən yayımladığı tənqidi materiallara görə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir. Bu qiyabi qərar,

---

[62] Azadlıq Radiosu, *Jurnalist Sevinc Osmanqızıya qiyabi 8 il həbs verilib*, https://www.azadliq.org/a/sevinc-osmanqizi-bas-prokurorluq/33591196.html
[63] News.milli.az, *Sevinc Osmanqızı və digərlərinə hökm oxundu*, https://news.milli.az/country/1311317.html

hüquq mənbələrinin açıq məlumatına görə, həm də digər xaricdə yaşayan jurnalist və bloqer işləri ilə eyni zamanda həyata keçirilmişdir.[64]

Tural Sadıqlının işi göstərir ki, müstəqil jurnalistika və ictimai təhlil fəaliyyəti, konkret olaraq "Azad Söz" kimi platformalar vasitəsilə yayımlanan tənqidi content, cinayət məsuliyyətinə cəlb edilmək üçün istifadə olunur. Qiyabi həbs qərarının çıxarılması həm ifadə azadlığına, həm də mediaya azadlıq hüququna yönəlmiş transmilli repressiyanın hüquqi mexanizmlər vasitəsi ilə həyata keçirilməsinin nümunəsidir. Bu hal Avropa İnsan Hüquqları Konvensiyasında qorunan ifadə azadlığı və ədalətli məhkəmə hüququ kimi prinsiplərlə ciddi ziddiyyət təşkil edir.

### 5.4. Rəqəmsal nəzarət

Transmilli repressiyanın müasir mərhələsində daha incə, lakin effektiv vasitələrdən biri rəqəmsal nəzarət və casus proqramlar vasitəsilə həyata keçirilən cəza- və təzyiq mexanizmləridir. Bu yanaşma yalnız fiziki sərhədlər daxilində deyil, xaricdə yaşayan jurnalistlər, hüquq müdafiəçiləri, siyasi fəallar və müxaliflər üçün də ciddi təhlükə mənbəyi yaradır. Onların şəxsi ünsiyyətləri, telefon zəngləri, elektron poçtları və digər rəqəmsal resursları gizli şəkildə izlənir, bu isə həm onların şəxsi təhlükəsizliyinə, həm də peşəkar fəaliyyətlərinə birbaşa mənfi təsir göstərir.

#### 5.4.1. Pegasus casus proqramı

Bu praktikanın ən məlum nümunələrindən biri ***Pegasus casus proqramı*** ilə bağlı beynəlxalq araşdırmalardır. Pegasus, İsrail mənşəli NSO Group şirkəti tərəfindən hazırlanmış və yalnız hökumətlərə satıldığı iddia edilən casus proqramdır. Mənbələrə görə bu proqram vasitəsilə mobil telefonlara gizli müdaxilə, mesajların və zənglərin monitorinqi, mikrofon və kameranın uzaqdan aktivləşdirilməsi kimi fəaliyyətlər mümkündür.[65] Pegasus Project adlı beynəlxalq jurnalist araşdırması göstərdi ki, bu alət bir çox ölkələrdə jurnalistlər, fəallar, hüquq müdafiəçiləri və siyasətçilər daxil olmaqla müxtəlif hədəflərə qarşı istifadə olunub və hüquqi casusluq kimi təqdim edilsə də effektiv təzyiq vasitəsinə çevrilib.

Azərbaycan kontekstində də Pegasus Project və əlaqəli araşdırmalar göstərir ki, Azərbaycan daxilində və xaricində fəaliyyət göstərən 200-dən çox jurnalist və fəalın telefon nömrəsi Pegasus tərəfindən hədəf kimi seçilmişdir və onların məlumatlarına gizli giriş üçün cəhdlər qeydə alınmışdır. Bu, yalnız jurnalistlərin şəxsi məlumatlarının ələ keçirilməsi ilə

---

[64] Apa.az, *Orduxan Teymurxan, Qurban Məmmədov, Tural Sadıqlı, Rəfael Piriyev və digərlərinə hökm oxunub*, https://apa.az/hadise/orduxan-teymurxan-qurban-memmedov-tural-sadiqli-refael-piriyev-ve-digerlerine-hokm-oxunub-932562

[65] Occrp.org, *Azərbaycanın Rəqəmsal Avtokratiyasındakı Həyat: Onlar hər şeyə nəzarət etmək istəyirlər,* https://www.occrp.org/en/project/the-pegasus-project/azerbaycanin-reqemsal-avtokratiyasindaki-heyat-onlar-her-seye-nezaret-etmek-isteyirler

nəticələnməmiş, eyni zamanda onların ifadə azadlığına, şəxsi həyatın gizliliyinə və psixoloji toxunulmazlığına ciddi təhlükə yaratmışdır.[66]

Rəqəmsal nəzarət və onlayn təzyiq yalnız texniki müdaxilə ilə məhdudlaşmır. Dövlətlərin bu texnologiyalardan istifadəsi beynəlxalq insan hüquqları normalarına ziddir və hədəf şəxslərin diaspor və beynəlxalq mühitdə nüfuzunu zəiflətmək, onları izolyasiya etmək məqsədi daşıyır. Bu metodlar müasir transmilli repressiyanın texnoloji komponentini təşkil edir və beynəlxalq səviyyədə ifadə azadlığı və şəxsi həyatın qorunması prinsiplərinə meydan oxuyur.[67]

2025-ci ilin oktyabrında Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) Azərbaycandan olan jurnalistlər və ictimai fəalların Pegasus vasitəsilə izlənilməsinə dair şikayətləri araşdırmaq üçün kommunikasiya mərhələsinə başlamışdır. Məhkəmə bu məsələni 59 nəfərin şikayəti əsasında iki iş üzrə birləşdirərək nəzərdən keçirir. Bu inkişaf rəqəmsal nəzarətin hüquqi cavabdehlik perspektivindən qiymətləndirilməsi ehtiyacının bariz göstəricisidir.[68]

### 5.4.2. Kamran Nəsirli nümunəsi

Rəqəmsal nəzarətin digər nümunəsi kimi ***Kamran Nəsirli*** misalını göstərmək olar. O, “Hürriyyət” və “Turan” kimi media qurumları ilə əməkdaşlıq etdiyinə və tənqidi jurnalist fəaliyyəti apardığına görə təzyiqlərə məruz qalmış və bu səbəbdən ölkəni tərk edərək İsveçrədə siyasi sığınacaq almaq üçün müraciət etmişdir.[69] Buna baxmayaraq, o, Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən transmilli xarakterli rəqəmsal təzyiqə məruz qalır. 2025-ci ilin dekabrında onunla “WhatsApp” vasitəsilə qeyri-rəsmi əlaqə saxlanılmış, əvvəlcə həyat yoldaşı, daha sonra isə özü ilə birbaşa təmas qurulmuşdur. Özlərini polis əməkdaşları kimi təqdim edən şəxslər ondan Azərbaycana qayıdaraq polisə gəlməyi tələb etmiş, lakin ilkin mərhələdə rəsmi çağırış sənədi təqdim olunmamışdır. Sonradan elektron poçt vasitəsilə formal çağırış göndərilməsi əvvəlki qeyri-rəsmi təzyiqi legitimləşdirmə cəhdi kimi qiymətləndirilə bilər.[70] Bu hal rəqəmsal vasitələrin transmilli repressiya aləti kimi istifadə olunduğunu göstərir.

Bu cür texnoloji alətlər və tətbiqlər sistemli şəkildə şəxsiyyətlərin hüquqlarını pozur, dövlət səlahiyyətlərinin sərhədlərindən kənarda belə onların həyatını, hərəkət azadlığını və siyasi iştirakını nəzarət altına almaq üçün istifadə edilir. Nəticə etibarilə, rəqəmsal nəzarət transmilli repressiyanın təkcə fiziki deyil, həm də rəqəmsal alətlər vasitəsilə genişlənmiş formasını əks etdirir.

---

[66] Access Now / UPR Info, 2023, *Azerbaijan’s use of Pegasus spyware in violation of human rights*, https://upr-info.org/sites/default/files/country-document/2023-08/Access_Now_Fact_Sheet.pdf
[67] Mediadefence.org, *Media Defence files four cases at the ECtHR concerning use of Pegasus spyware by the Azerbaijan government*, https://www.mediadefence.org/news/pegasus-spyware-azerbaijan/
[68] Toplum.tv, *Avropa Məhkəməsi Azərbaycanda casus proqramla izlənən 59 nəfərin işi üzrə kommunikasiya başladır,* https://toplummedia.tv/mehkeme/pavropa-mehkemesi-azerbaycanda-casus-proqramla-izlenen-59-neferin-isi-uumlzre-kommunikasiya-basladirp
[69] Medianews.az, *Azərbaycanda bu qəzet fəaliyyətini dayandırdı,* https://medianews.az/azerbaycanda-bu-qezet-fealiyyetini-dayandirdi
[70] Foto.info.az, *Avropda yaşayan jurnalist təqib olunur*, https://foto.info.az/arasdirma/25782-avropda-yasayan-jurnalist-tqib-olunur.html

### 5.5. Ailə üzvlərinə təzyiq

Transmilli repressiyanın daha incə, lakin yüksək təsir gücünə malik formalarından biri ailə üzvlərinə və yaxın ətrafın nümayəndələrinə qarşı təzyiq mexanizmləridir. Bu praktika çərçivəsində xaricdə yaşayan jurnalistlər, bloqerlər, hüquq müdafiəçiləri və siyasi fəalların valideynləri, həyat yoldaşları, uşaqları və digər qohumları hədəf alınır. Məqsəd birbaşa hədəf şəxsə fiziki təsir göstərmək deyil, onun üzərində psixoloji, sosial və emosional basqı yaratmaq, fəaliyyətini məhdudlaşdırmaq və ya siyasi mövqeyindən geri çəkilməyə məcbur etməkdir.

Dolayı təzyiq strategiyası dövlətlərə imkan verir ki, sərhəddən kənarda yaşayan tənqidçiləri onların ölkə daxilində qalan sosial əlaqələri vasitəsilə nəzarətdə saxlasın. Bu yanaşma yalnız fərdi səviyyədə deyil, həm də diaspor mühitində qorxu atmosferi yaradaraq digər fəallar üçün profilaktik təsir göstərir və beləliklə, transmilli repressiyanın kollektiv təsir mexanizminə çevrilir.

Bu bölümdə ailə üzvlərinə və yaxın ətrafına yönəlmiş sistemli təzyiqlər qeyd olunur. Konkret nümunələr aşağıdakı altməqamlar üzrə təsvir olunur:

#### 5.5.1. Qohumların işdən çıxarılması halları

Hakimiyyət orqanlarının məqsədyönlü siyasəti nəticəsində hədəf şəxslərin yaxın qohumları dövlət qurumlarından, ictimai və ya özəl sektorlardan azad edilmişdir. Bu praktikada qurum rəhbərlərinə və idarəçilik strukturuna təzyiq göstərilərək qohumların peşə fəaliyyətinə son qoyulması təmin edilir. Belə halların məqsədi həm hədəf şəxsin ailə təhlükəsizliyini pozmaq, həm də sosial-iqtisadi təzyiq vasitəsilə əsas hədəfi susdurmaqdır. Məsələn, Amnesty International tərəfindən 2024-cü ildə yayımlanan məlumatlarda qeyd olunur ki, Azərbaycanda hökumət tənqidçilərinin ailə üzvlərinə qarşı sosial və iqtisadi təzyiq mexanizmləri geniş tətbiq olunur və bu, tənqidçi səsləri susdurmaq üçün istifadə edilən sistemli strategiyanın tərkib hissəsidir. Bu yanaşma yalnız fərdi hüquqların pozulması ilə məhdudlaşmır, həm də ailə institutunun özünü təzyiq alətinə çevirərək repressiyanın təsir dairəsini genişləndirir.[71]

#### 5.5.2. Mülkiyyət hüququnun yağmalanması

Azərbaycan Respublikasında mülkiyyət hüququnun pozulmasına dair də nümunələr mövcuddur. Hüquq müdafiəçisi Qurban Məmmədov və ailəsi ilə bağlı hadisələrdə, xaricdəki fəaliyyəti fonunda hədəf şəxsə və ailə üzvlərinə məxsus obyektlərin zorla dağıdılması, şəhərsalma qaydalarına əməl olunmadan mülkiyyətin əlindən alınması qeydə alınmışdır. Bu

[71] Amnesty International, *Azerbaijan: Repression of critics extends to family members, 2024*
https://www.amnesty.org/en/location/europe-and-central-asia/azerbaijan/report-azerbaijan/

cür hallarda yalnız inzibati deyil, həm də hüquqi bazadan kənar repressiv mexanizmlər tətbiq olunur.[72]

### 5.5.3. Ailə üzvlərinə inzibati cəza

Bu praktikanın konkret və sənədləşdirilmiş nümunələrindən biri xaricdə yaşayan azərbaycanlı video-bloger və ictimai fəal ***Orduxan Teymurxan*** ilə bağlı hadisələrdir. 2017-ci ilin fevral ayında onun Almaniyada Azərbaycan hökumət əleyhinə çıxışlarından sonra Azərbaycanda yaşayan ailə üzvləri hədəfə alınmış, polis tərəfindən onun 12 qohumu, o cümlədən azyaşlı ailə üzvü saxlanılmışdır. Növbəti gün isə qohumlardan ikisi inzibati qaydada 30 günlük həbs cəzasına məhkum edilmişdir. Bu hadisə ailə üzvlərinə qarşı tətbiq olunan tədbirlərin birbaşa olaraq hədəf şəxsin fəaliyyətinə təsir göstərmək məqsədi daşıdığını açıq şəkildə nümayiş etdirir və transmilli repressiyanın klassik nümunələrindən biri kimi qiymətləndirilə bilər.[73]

Cəmil Hacıyev ilə bağlı hal da transmilli repressiyanın dolayı və ailə üzvləri üzərindən həyata keçirilən formasına nümunə təşkil edir. Cəmil Hacıyev 2025-ci ildə ölkəni tərk etdikdən sonra barəsində xarici fondlardan maliyyə alma, vergidən yayınma və hakimiyyəti zorla ələ keçirməyə cəhd kimi ittihamlarla cinayət işi açılmışdır. Bununla paralel olaraq, onun ölkədə qalan ailə üzvlərinə qarşı təzyiq tədbirləri həyata keçirilmişdir. Belə ki, ona və qohumuna məxsus nəqliyyat vasitələri heç bir hüquqi əsas olmadan götürülərək cərimə meydançasına yerləşdirilmiş və onların geri qaytarılması onun ölkəyə qayıtması ilə şərtləndirilmişdir.[74] Bu hallar göstərir ki, hüquqi və inzibati mexanizmlərdən istifadə etməklə ailə üzvləri üzərindən təzyiq göstərilməsi, xaricdə fəaliyyət göstərən siyasi fəalların davranışına təsir etmək məqsədi daşıyan transmilli repressiya aləti kimi çıxış edir.

### 5.5.4. Mənəviyyata əl uzatma

Təzyiqlər yalnız iqtisadi və inzibati vasitələrlə məhdudlaşmır, həm də şəxslərin mənəvi və dini hüquqlarına yönəlir. Məsələn, hüquq müdafiəçisi Vidadi İsgəndərin atasının qəbrinin məqsədli şəkildə təhqir edilməsi hadisəsi[75] nəinki şəxsi məkanın hörmətsizliyi, həm də qurbanın ailəsinin mənəvi dəyərlərinə qarşı yönəlmiş təzyiq aktı kimi qiymətləndirilməlidir. Bu cür hallar dövlət strukturlarının reaksiyasız qalması ilə müşahidə olunmuş, repressiyanın sistemli və planlı mahiyyətini nümayiş etdirir.

Beynəlxalq insan hüquqları təşkilatlarının hesabatları da göstərir ki, bu cür təzyiqlər yalnız saxlanılma və inzibati cəza ilə məhdudlaşmır. Xaricdə yaşayan fəalların ölkədə qalan yaxınlarına qarşı vergi yoxlamaları, iş yerlərində təzyiqlər, sosial təminatın məhdudlaşdırılması və digər inzibati vasitələrdən istifadə halları qeydə alınır. Bu tədbirlər

---

[72] Hurriyyet TV, *Qurban Məmmədovun evi dağıdılır və yağmalanır*, https://www.youtube.com/watch?v=WpmfHU5Jd3w

[73] Ecoi.net, *Azerbaijani Activist's Family Arrested, Harassed - Stop Targeting Relatives of Exiled Critics*, https://www.ecoi.net/en/document/1395233.html

[74] İctimaixeber.org, *Cəmil Hacıyev haqqında axtarışlar səngimir*, https://ictimaixeber.org/2025/05/23/cmil-hacyev-haqqnda-axtarlar-sngimir.html

[75] NatiqEdilov, *Vidadi İsgəndərlinin atasının məzarının təhqir edilməsi barədə,* https://www.youtube.com/watch?v=HjHhfEy0czI

sistemli xarakter daşıyaraq fərdlərin sosial rifahına və təhlükəsizliyinə təsir edir və nəticədə hədəf şəxsin davranışına dolayı təsir göstərmək məqsədi güdür.

Hüquqi baxımdan bu cür praktika kollektiv cəza kimi qiymətləndirilir və beynəlxalq insan hüquqları standartlarına, o cümlədən fərdi məsuliyyət prinsipinə ziddir. Ailə üzvlərinin hədəfə alınması nəinki onların şəxsi azadlıq və təhlükəsizlik hüquqlarını pozur, həm də hədəf şəxsin effektiv hüquqi müdafiə imkanlarını zəiflədir. Bu isə transmilli repressiyanın yalnız fərdi deyil, sistemli və institusional xarakter daşıdığını bir daha təsdiq edir.

### 5.6. Xaricdə hücum və öldürmə

Transmilli repressiyanın ən radikal və təhlükəli formalarından biri xaricdə *fiziki zorakılıq və öldürmə* hallarıdır. Bu forma dövlətlərin öz tənqidçilərinə qarşı sərhədlərdən kənarda birbaşa və ya dolayı zor tətbiq etməsi ilə xarakterizə olunur və beynəlxalq hüququn fundamental prinsiplərinin kobud şəkildə pozulması kimi qiymətləndirilir. Belə hallarda hədəf şəxslərin həyat və sağlamlığına birbaşa təhdid yaranmaqla yanaşı, digər mühacir fəallar və jurnalistlər üçün qorxu və çəkindirici mühit formalaşdırılır.

Xaricdə zorakılıq nümunələrinin ən diqqətçəkən formalarından biri də siyasi retorika vasitəsilə müəyyən qrupların açıq-aşkar "legitim hədəf" kimi göstərilməsidir. Belə yanaşma yalnız psixoloji təzyiq doğurmur, həm də fiziki zorakılıq üçün şərait yarada bilər. Məsələn, Milli Məclisin deputatı Zahid Oruc özünün 5 Mart 2024-cü il tarixli Milli Məclisdəki çıxışında Prezident və ailəsi əleyhinə çıxış edənləri "*legitim hədəf kimi hər cür zərərsizləşdirilməyə açıq elan edilməlidir*" kimi ifadələrlə səsləndirmişdir.[76] Bu çıxış ekspertlər tərəfindən zorakılığa çağırış kimi qiymətləndirilmişdir.

Bu tip repressiya müxtəlif modellər üzrə həyata keçirilir və Azərbaycan kontekstində bir neçə fərqli praktik yanaşma müşahidə olunmuşdur.

#### 5.6.1. Birbaşa fiziki zorakılıq

Bu baxımdan 2026-cı ildə ABŞ-ın Vaşinqton şəhərində baş vermiş insident diqqətəlayiqdir. Məlumatlara görə, Azərbaycan Prezidentinin səfəri zamanı onun mühafizə xidmətinə aid şəxslər etiraz aksiyası keçirən şəxslərlə fiziki qarşıdurmaya girmiş, aksiya iştirakçıları zorakılığa məruz qalmışdır. Hadisə ilə bağlı yayılan videogörüntülər mühafizəçilərin etirazçılara qarşı fiziki güc tətbiq etdiyini göstərmişdir. Bu insident dövlətə bağlı şəxslərin xarici ərazidə zor tətbiq etməsinin konkret nümunəsi kimi qiymətləndirilir və qəbul edən dövlətin yurisdiksiyası çərçivəsində əlavə hüquqi suallar doğurur.[77]

---

[76] Meydan.TV, *Zahid Oruc: "Prezidenti təhqir edənlər legitim hədəflər kimi hər cür zərərsizləşdirilməlidir"*, https://www.meydan.tv/az/article/zahid-oruc-prezidenti-tehqir-edenler-legitim-hedefler-kimi-her-cur-zerersizlesdirilmelidir/

[77] Theguardian.com, *Bodyguards for Azerbaijani president, in town for Trump's Board of Peace, attack protesters in DC*, https://www.theguardian.com/us-news/2026/feb/20/azerbaijan-trump-board-peace-protestors

### 5.6.2. Dolayı fiziki zorakılıq

Dolayı fiziki zorakılıq üçüncü şəxslər vasitəsilə hücumların həyata keçirilməsidir. Bu kontekstdə Fransada yaşayan bloqer ***Məhəmməd Mirzəliyə*** qarşı 2020-ci ildə törədilmiş hücum xüsusi qeyd olunmalıdır. O, silahlı hücuma məruz qalaraq bıçaqlanmış və ağır yaralanmışdır. Hadisə onun siyasi fəaliyyəti ilə əlaqələndirilmiş və transmilli repressiyanın dolayı zorakılıq forması kimi qiymətləndirilmişdir. Bu cür hücumlar formal olaraq qeyri-rəsmi icraçılar tərəfindən həyata keçirilsə də, onların motivasiyası və hədəf seçimi siyasi kontekstlə sıx bağlı olur.[78]

### 5.6.3. Öldürmə və ya ölümə gətirib çıxaran zorakılıq halları

Bu kontekstdə vurğulanmalıdır ki, transmilli repressiya çərçivəsində həyata keçirilən fiziki hücumlar və ölüm halları yalnız ayrı-ayrı fərdlərin həyat hüququna yönəlmiş təcrid olunmuş aktlar kimi deyil, daha geniş məqsədli və sistemli təsir mexanizminin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Bu cür hallar bir tərəfdən hədəf şəxslərin fiziki olaraq zərərsizləşdirilməsi və ya susdurulmasına xidmət edirsə, digər tərəfdən isə xaricdə fəaliyyət göstərən digər siyasi fəallar, hüquq müdafiəçiləri və jurnalistlər üçün çəkindirici effekt yaratmaq məqsədi daşıyır.

Hüquqi müstəvidə bu kimi əməllər yaşamaq hüququnun kobud və sistematik pozuntusu kimi qiymətləndirilməklə yanaşı, dövlətlərin yalnız öz yurisdiksiyası daxilində deyil, həm də dolayı və ya birbaşa təsir imkanları vasitəsilə xaricdə baş verən hüquq pozuntularına görə məsuliyyət məsələsini gündəmə gətirir. Bu baxımdan, belə hallar Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsi ilə təminat altına alınmış yaşamaq hüququ ilə açıq ziddiyyət təşkil edir və dövlətlərin adekvat, effektiv və şəffaf istintaq aparmaq borcunu aktuallaşdırır.

Nəticə etibarilə, xaricdə baş verən fiziki zorakılıq və ölüm halları transmilli repressiyanın ən sərt və açıq forması kimi çıxış edir və bu fenomenin həm fərdi hüquqlar, həm də beynəlxalq hüquqi nizam baxımından çoxşaxəli və sistemli təhlükə mənbəyi olduğunu aydın şəkildə ortaya qoyur.

Bu ümumi hüquqi və konseptual çərçivə fonunda, aşağıda təqdim olunan konkret hallar transmilli repressiyanın praktiki təzahürlərini və onun real nəticələrini daha aydın şəkildə nümayiş etdirir.

#### 5.6.3.1. Vidadi İskəndərli

Xaricdə yaşayan hüquqşünas və ictimai fəal Vidadi İsgəndərlinin Fransada qətlə yetirilməsi transmilli repressiyanın ən ağır nəticələrindən biri kimi qiymətləndirilir. Hadisənin baş

[78] Cpj.org, *Exiled Azerbaijani blogger Mahammad Mirzali stabbed at least 16 times in knife attack in France,* https://cpj.org/2021/03/exiled-azerbaijani-blogger-mahammad-mirzali-stabbed-at-least-16-times-in-knife-attack-in-france/

vermәsi faktı tәsdiqlәnsә dә, onun motivlәri vә mümkün sifariş xarakteri ilә bağlı hüquqi qiymәtlәndirmә tam şәkildә yekunlaşmamışdır.[79]

### 5.6.3.2. Bayram Mәmmәdov

Transmilli repressiya kontekstindә xüsusi diqqәt çәkәn hallardan biri dә Bayram Mәmmәdovun ölümüdür. O, siyasi motivli ittihamlarla hәbs edilmiş vә azadlığa çıxdıqdan sonra Türkiyәyә getmişdir. İstanbul şәhәrindә onun meyitinin dәnizdә tapılması işi әtrafında ciddi suallar mövcuddur. Hadisә ilә bağlı aparılan istintaqın qeyri-kafi vә qeyri-şәffaf olması, elәcә dә nәticәlәrin açıqlanmaması bu ölümün tәsadüfi olmayacağına dair şübhәlәri artırır. Bu hal transmilli repressiyanın daha ekstremal forması kimi fiziki tәhlükәsizlik risklәri kontekstindә ayrıca qiymәtlәndirilmәlidir.[80]

### 5.6.3.3. Vüqar Rzayev

Belçikanın Mexelen şәhәr polisi 2021-ci ilin yanvarın 15-dә mühacirәtdә olan Azәrbaycan Xalq Cәbhәsi Partiyasının üzvü olmuş Vüqar Rzayevi ölmüş vәziyyәtdә tapıb. Bu müәmmalı ölümün indiyә qәdәr cavablandırılmayan çoxlu suallar doğurub[81]. Vüqar Rzayev 2020-ci il dekabrın 30-da itkin düşüb. O, hәmin gün yaşadığı mәnzildәn işә getmәk adı ilә çıxıb vә geri qayıtmayıb. Mexelen şәhәrinin polisi onun meyitinin meşәdә dәrin bir çaladan tapıldığını bildirib.

### 5.6.3.4. Hüseyn Bakıxanov

Gürcüstan hökumәtinә siyasi sığınacaq üçün müraciәt edәn Azәrbaycan vәtәndaşı Hüseyn Bakıxanovun 14 iyul 2021-ci ildә Tbilisidә ölmәsi xәbәri yayılıb. Rәsmi mәlumata görә o özünü Tbilisidәki otellәrin birindәn atıb. Faktla bağlı intihar hәddinә çatdırma maddәsi ilә cinayәt işi açılıb. Onun müәmmalı şәkildә ölümü, bu ölümün iki hәftә gizlәdilmәsi, otel rәhbәrliyinin açıqlamaları çox ciddi şübhәlәrә yol açıb.[82]

### 5.6.3.5. Daphne Caruana Galizia

Maltada jurnalist Daphne Caruana Galizianın qәtli ilә bağlı Avropa Şurası Parlament Assambleyası tәrәfindәn qәbul edilmiş 2019-cu il tarixli "Daphne Caruana Galizianın qәtli vә Maltada hüququn aliliyi" adlı mәruzәdә qeyd olunur ki, jurnalistin fәaliyyәti yüksәk sәviyyәli korrupsiya, o cümlәdәn xarici aktorlarla әlaqәli maliyyә vә enerji sazişlәrini әhatә etmişdir.

---

[79] Oc-media.org, *Exiled Azerbaijani activist Vidadi Isgandarli dies after stabbing in France*, https://oc-media.org/exiled-azerbaijani-activist-vidadi-isgandarli-dies-after-stabbing-in-france/

[80] Amerikaninsesi.org, *Elgiz Qәhrәman: Bayram Mәmmәdovun ölümü "şübhәli ölüm" kimi qeydә alınıb,* https://web.archive.org/web/20250411000417/https://www.amerikaninsesi.org/a/elgiz-q%C9%99hr%C9%99man-bayram-m%C9%99mm%C9%99dovun-%C3%B6l%C3%BCm%C3%BC-%C5%9F%C3%BCbh%C9%99li-%C3%B6l%C3%BCm-kimi-qeyd%C9%99-al%C4%B1n%C4%B1b/5881899.html

[81] Amerikaninsesi.org, *Azәrbaycanlı mühacirin Belçikada meyiti tapılıb*, https://www.amerikaninsesi.org/a/az%C9%99rbaycanl%C4%B1-m%C3%BChacirin-bel%C3%A7ikada-meyiti-tap%C4%B1l%C4%B1b-/5740163.html

[82] Azadliq.org, *Sığınacaq istәyәn azәrbaycanlı blogerin Tbilisidә meyiti tapılıb,* https://www.azadliq.org/a/azerbaycanli-bloger-tbilisi/31386205.html

Onun araşdırmalarında xüsusilə Azərbaycanla bağlı maliyyə axınları və SOCAR ilə əlaqəli müqavilələr diqqət mərkəzində olmuşdur. Bu kontekstdə, jurnalistin öldürülməsi yalnız milli çərçivədə deyil, transmilli korrupsiya və siyasi-iqtisadi maraqların kəsişməsi fonunda qiymətləndirilir.[83] Bu hal onu göstərir ki, transmilli repressiya və ya onunla əlaqəli risklər yalnız siyasi fəallara deyil, həm də beynəlxalq korrupsiya şəbəkələrini ifşa edən jurnalistlərə qarşı yönələ bilər və bu zaman dövlətə bağlı və ya dövlətlə əlaqəli kommersiya strukturlarının adlarının hallanması belə halların mürəkkəb və çoxtərəfli xarakter daşıdığını ortaya qoyur.

## 6. Nəticələr

Aparılmış təhlil göstərir ki, transmilli repressiya Azərbaycan kontekstində ayrı-ayrı epizodik hallar deyil, institusional xarakter daşıyan və müxtəlif alətlər vasitəsilə həyata keçirilən kompleks dövlət siyasətidir. Bu çərçivədə aşağıdakı əsas nəticələr müəyyən edilmişdir:

### 6.1. Sistemli və çoxsəviyyəli repressiya mexanizmi

Azərbaycan hakimiyyəti transmilli repressiyanı sistemli və koordinasiyalı şəkildə tətbiq edir. Fiziki zorakılıq, qiyabi cinayət təqibi, ekstradisiya və deportasiya cəhdləri, rəqəmsal nəzarət, habelə ailə üzvlərinə təzyiq kimi müxtəlif alətlər paralel və bir-birini tamamlayan formada istifadə olunur. Bu isə repressiyanın təsadüfi deyil, strateji planlaşdırılmış siyasət olduğunu göstərir.

### 6.2. Avropa hüquq məkanına struktur təhdid

Bu praktika Avropa hüquq məkanında formalaşmış fundamental prinsiplərə, xüsusilə ifadə azadlığı, şəxsi həyatın toxunulmazlığı və səmərəli hüquqi müdafiə hüququna sistemli şəkildə təhdid yaradır. Transmilli repressiya halları Avropa İnsan Hüquqları Konvensiyasının tətbiq mexanizmlərinin effektivliyini zəiflədən presedentlər formalaşdırır.

### 6.3. Xaricdə yaşayan şəxslərin hüquqi və fiziki təhlükəsizliyinin aşınması

Xaricdə yaşayan jurnalistlər, hüquq müdafiəçiləri və siyasi fəallar faktiki olaraq davamlı təzyiq və risk mühitində fəaliyyət göstərirlər. Onların yalnız hüquqi statusu deyil, həm də fiziki təhlükəsizliyi və sosial sabitliyi təhlükə altındadır. Bu vəziyyət dövlətlərin öz yurisdiksiyası daxilində olan şəxsləri qorumaq öhdəliyinin praktik effektivliyini sual altına qoyur.

### 6.4. Beynəlxalq hüquqi mexanizmlərin instrumentalizasiyası

Ekstradisiya prosedurları, Interpol mexanizmləri və digər hüquqi əməkdaşlıq alətləri siyasi məqsədlərlə istifadə olunaraq mahiyyətcə hüquqi olan mexanizmlərin siyasi alətə

[83] Pace.coe.int, *Daphne Caruana Galizia's assassination and the rule of law in Malta and beyond: ensuring that the whole truth emerges*, https://pace.coe.int/en/files/27724/html

çevrilməsinə səbəb olur. Bu isə beynəlxalq hüquqi əməkdaşlığın etibarlılığını zəiflədir və qarşılıqlı etimad prinsipini sarsıdır.

### 6.5. Rəqəmsal və qeyri-ənənəvi repressiya alətlərinin genişlənməsi

Casus proqramlar, onlayn nəzarət və informasiya manipulyasiyası transmilli repressiyanın yeni və sürətlə genişlənən komponentinə çevrilmişdir. Bu tendensiya göstərir ki, repressiya artıq yalnız fiziki məkanla məhdudlaşmır, rəqəmsal mühitdə də davamlı və sərhədsiz xarakter alır.

### 6.6. Kollektiv təsir və çəkindirici effekt

Ailə üzvlərinə və yaxın ətrafın nümayəndələrinə qarşı təzyiq mexanizmləri transmilli repressiyanın təsirini fərdi səviyyədən çıxararaq kollektiv müstəviyə keçirir. Bu isə yalnız konkret hədəf şəxsləri deyil, daha geniş diaspor mühitini əhatə edən qorxu və özünüsenzura atmosferi yaradır.

### 6.7. Presedent və yayılma riski

Azərbaycan nümunəsi göstərir ki, transmilli repressiya effektiv nəzarət və reaksiya mexanizmləri olmadıqda digər dövlətlər üçün də təqlid edilə bilən modelə çevrilə bilər. Bu isə Avropa məkanında hüququn aliliyi prinsipinə uzunmüddətli sistemli risk yaradır.

### 6.8. Beynəlxalq cavab mexanizmlərinin yetərsizliyi

Mövcud beynəlxalq və regional mexanizmlər, o cümlədən məhkəmə nəzarəti, siyasi monitorinq və diplomatik reaksiyalar transmilli repressiyanın qarşısını almaqda hələ də tam effektiv deyil. Bu isə daha güclü institusional cavab və koordinasiyalı tədbirlərin zəruriliyini ortaya qoyur.

## 7. Tövsiyələr

Aparılmış təhlilə əsasən, transmilli repressiyanın qarşısının alınması və insan hüquqlarının effektiv qorunması məqsədilə aşağıdakı tədbirlərin görülməsi tövsiyə olunur:

### 7.1. Avropa Şurası və AŞPA üçün

- Transmilli repressiya üzrə xüsusi məruzəçi təyin edilsin və onun mandatına üzv dövlətlər üzrə faktaraşdırıcı missiyalar, illik hesabatlar və təcili müdaxilə mexanizmləri daxil edilsin.
- Bu sahədə institusional monitorinq mexanizmi yaradılaraq transmilli repressiya halları üzrə sistemli məlumat toplama, erkən xəbərdarlıq və risk qiymətləndirmə sistemi formalaşdırılsın.
- Üzv dövlətlər üçün vahid reaksiyalar çərçivəsi hazırlanaraq siyasi motivli ekstradisiya, deportasiya və hüquqi təqiblərə qarşı koordinasiyalı yanaşma təmin edilsin.

- Transmilli repressiya halları üzrə tematik qətnamə və ya tövsiyə sənədi qəbul edilərək üzv dövlətlər üçün minimal hüquqi standartlar müəyyən edilsin.

### 7.2. Üzv dövlətlər üçün

- Siyasi motivli ekstradisiya və deportasiya tələbləri üzrə qərar qəbul edilərkən non-refoulement prinsipi və insan hüquqları riskləri prioritet qaydada nəzərə alınsın və bu cür tələblər sistemli şəkildə rədd edilsin.
- Risk altında olan jurnalistlər, fəallar və mühacirlər üçün sığınacaq, müvəqqəti qoruma və hüquqi yardım mexanizmləri gücləndirilsin.
- Xarici dövlətlərin transmilli repressiya fəaliyyətlərinə qarşı cinayət-hüquqi və inzibati tədbirlər, o cümlədən sanksiya mexanizmləri tətbiq edilsin.
- Rəqəmsal nəzarət və casus proqramlardan istifadəyə qarşı milli səviyyədə hüquqi müdafiə və kiber təhlükəsizlik tədbirləri gücləndirilsin.

### 7.3. Interpol üçün

- Qırmızı bülletenlər və digər axtarış mexanizmləri üzrə siyasi motivli sui-istifadələrin qarşısını alan filtr və yoxlama prosedurları gücləndirilsin.
- Şikayət mexanizmləri daha əlçatan və effektiv hala gətirilsin, fərdlərin hüquqlarının müdafiəsi üçün sürətli baxılma prosedurları tətbiq edilsin.
- Üzv dövlətlərin təqdim etdiyi məlumatların müstəqil hüquqi qiymətləndirilməsi mexanizmi genişləndirilsin.

### 7.4. Azərbaycan hakimiyyəti üçün

- Siyasi motivli qiyabi cinayət təqiblərinə və məhkəmə qərarlarına xitam verilsin, cinayət təqibi yalnız qanuni, şəffaf və sübutlara əsaslanan prosedurlar çərçivəsində həyata keçirilsin.
- Transmilli repressiya ilə əlaqəli bütün praktikalara, o cümlədən ailə üzvlərinə təzyiq, rəqəmsal nəzarət və xaricdə təqib hallarına dərhal son qoyulsun.
- AİHM qərarlarının icrası tam və vaxtında təmin edilsin, beynəlxalq hüquq öhdəliklərinə riayət edilsin.
- Hüquq-mühafizə və təhlükəsizlik orqanlarının fəaliyyətinə dair müstəqil nəzarət və hesabatlılıq mexanizmləri gücləndirilsin.

## Yekun

Bu hesabat göstərir ki, transmilli repressiya artıq yalnız milli problem olaraq qalmır, o, Avropa hüquq sisteminin bütövlüyünə, üzv dövlətlərin insan hüquqları öhdəliklərinə və beynəlxalq hüququn aliliyinə yönəlmiş ciddi çağırışdır. Bu təhdid yalnız fərdi hüquq pozuntularını əhatə etmir, həm də beynəlxalq hüquqi mexanizmlərin etibarlılığına və səmərəliliyinə ciddi təsir göstərir.

Hesabatın təhlili göstərir ki, transmilli repressiya çoxsəviyyəli və koordinasiyalı xarakter daşıyır, fiziki zorakılıq, qiyabi məhkəmə qərarları, deportasiya, rəqəmsal nəzarət və ailə üzvlərinə təzyiq kimi vasitələr bir-birini tamamlayaraq hədəf şəxslərin hüquqlarını sistemli şəkildə məhdudlaşdırır.

Buna qarşı cavab kollektiv, koordinasiyalı və sistemli olmalıdır. Avropa Şurası, AŞPA, üzv dövlətlər və beynəlxalq institutlar birgə hərəkət etməli, transmilli repressiyanın qarşısını almaq, risk altında olan şəxslərin hüquqlarını qorumaq və hüquqi müdafiəni gücləndirmək üçün həm preventiv, həm də reaktiv mexanizmləri effektiv şəkildə tətbiq etməlidirlər.

Bu yanaşma yalnız hüquqi müdafiəni təmin etməklə kifayətlənməyərək, həm də Avropa hüquq məkanında presedent yaratmaq potensialı olan siyasət və praktikalara qarşı uzunmüddətli və institusional reaksiyanı ehtiva edir.

## Azərbaycan Xalq Parlamenti haqqında qısa məlumat

Azərbaycan Xalq Parlamenti (AzXP) vətəndaş cəmiyyətinin təşəbbüsü əsasında formalaşmış alternativ nümayəndəlik platformasıdır. Quruma daxil olan üzvlər müxtəlif ictimai-siyasi baxışları təmsil edən fəallar, hüquq müdafiəçiləri, alimlər və müstəqil ekspertlərdir.

AzXP-nin əsas məqsədi Azərbaycanda demokratiyanın, hüququn aliliyinin və insan hüquqlarının təmin olunmasına töhfə vermək, ictimai nəzarət mexanizmlərini gücləndirmək və vətəndaşların siyasi iştirak imkanlarını genişləndirməkdir.

Parlament fəaliyyətində şəffaflıq, hesabatlılıq və inklüzivlik prinsiplərini rəhbər tutur, mütəmadi olaraq bəyanatlar, hesabatlar və analitik sənədlərlə çıxış edir. Eyni zamanda, beynəlxalq təşkilatlarla əməkdaşlığa açıqdır və qlobal insan hüquqları gündəliyinə uyğun fəaliyyət göstərir.

AzXP, xüsusilə siyasi təqiblərə məruz qalan şəxslərin müdafiəsi, seçki hüquqlarının qorunması və demokratik institutların inkişafı istiqamətində fəal mövqe nümayiş etdirir.

Bu Hesabat AzXP-nin təşəbbüsü ilə hüquqşünas, Azərbaycan Xalq Parlamentinin Rəyasət Heyətinin üzvü Ataxan Vəli Əbilov tərəfindən hazırlanıb.

**Əlaqə məlumatları:**

Azərbaycan Xalq Parlamenti (AzXP)
Website: www.azxp.info
Email: info@azxp.info
ataxanabilov@gmail.com
Phone: +31 644404666